14 iyul 2023 №52 (2021)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## 54 il əvvəl bu gün...

### Azərbaycanda Heydər Əliyev adı ilə başlanan yeni dövr



14 iyul 1969-cu il. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (KP MK) plenumu keçirilib. Plenumda təşkilati məsələyə baxılıb. KP MK-nın Birinci katibi Vəli Axundovun istefası qəbul olunub. Plenum iştirakçılarının yekdil qərarı ilə Heydər Əliyev Azərbaycan KP MK-nın Birinci katibi – respublikanın rəhbəri seçilib.

54 il öncə bu hadisənin şahidi olanlar Azərbaycanın yeni tarixində hansı epoxanın başlandığının fərqində deyildilər. Bu da təbii idi. Azərbaycanın gələcəyi və fundamental inkişafı üçün tarixi önəm kəsb edən Heydər Əliyev epoxası yenicə başlayırdı. Bu epoxanın önəmini, mahiyyətini və Azərbaycanın inkişaf tarixindəki yerini anlamaq üçün onu yaşamaq, bu dövrün Azərbaycanın siyasi, sosial-iqtisadi, mədəni həyatında yerini dərk etmək lazım idi.

Hər şeyin gerçək dəyər və əhəmiyyəti müqayisədə aşkarlanır. Bu gün birmənalı şəkildə qeyd etmək olar ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr bütün parametrlərinə, statistik və qeyri göstəricilərinə və nəhayət, Azərbaycan xalqının canlı yaddaşındakı yerinə görə bütün müqayisələrdən yüksəkdir.

Azərbaycanda Heydər Əliyev adı ilə başlanan yol onun xalqı ilə bütünləşməsi, bütövləşməsi yolu olub. Bu illərin heç birində o, xalqından ayrı olmayıb. Və ən əsası odur ki, xalq, millət bu illər ərzində heç vaxt özünü Heydər Əliyevdən, onun müdrik dühasından ayrı görməyib. O, Azərbaycana rəhbərlikdə olanda da, olmayanda da. Bütün hallarda Azərbaycan xalqı üz tutacağı, müdrikliyinə istinad edib köməyə çağıracağı rəhbəri görüb və ona güvənib. İstər 1969-1982-ci illərdə sovet Azərbaycanına rəhbərlik etdiyi, yaxud 1982-1987-ci illərdə SSRİ rəhbərliyində çalışdığı dövr, istərsə də Azərbaycana rəhbərlikdən kənarda olduğu 1988-1992-ci illərdə Heydər Əliyev şəxsiyyətinin başlıca cəhəti xalqla bir olub, ona arxalanmaq olub.

Təsadüfi deyil ki, başabəla liderlərin “idarəçiliyinə” bir il tab gətirən Azərbaycan xalqı 1993-cü ilin yayında, yenicə təşəkkül tapan müstəqil dövlətçiliyi, milli gələcəyi uçurumun kənarında dayananda, Azərbaycanı vətəndaş qarşıdurması və parçalanma gözləyəndə yenə öz gerçək liderinə, onun müdrikliyinə üz tutdu. O da xalqın çağırışı ilə qayıtdı. “Mən buraya tək, ürəyimin hökmü ilə gəldim ki, xalqıma ən dəhşətli fəlakətdən yaxa qurtarmaqda kömək edim...”.

Bu, eyni zamanda xalqın artıq qəribsədiyi güvənli, təhlükəsiz, əmin-arxayın həyata qayıdışı, sabaha inam və etimadının bərpası idi...

## Vaqif Poeziya Günləri Qazaxda başlayıb

### Söz-sənət bayramı 14-15 iyulda Şuşada davam edəcək...

Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə keçirilən Vaqif Poeziya Günləri iyulun 13-də şairin doğma şəhərində – Qazax rayonunun Yuxarı Salahlı kəndində Vaqifin büstünə gül qoyulmaqla başlayıb.



Sonra mədəniyyət və incəsənət xadimləri, Azərbaycan Yazıçılar Birliyinin üzvləri, gənc yazarlar Qazax şəhərinin mərkəzindəki “Mütəfəkkirlər parkı”nda toplaşıblar.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov Vaqif Poeziya Günlərinin keçirilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, Şuşa işğaldan azad olunandan sonra dövlət başçımızın ilk sərəncamlarından biri Şuşada həm “Xarıbülbül” festivalının, həm də Vaqif Poeziya Günlərinin keçirilməsi oldu. 2021-ci ildən başlayaraq hər iki layihə Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilir.





Qeyd edilib ki, Vaqif Qazaxda dünyaya göz açsa da, Şuşada məşhurlaşıb və orada dəfn olunub. Qazaxda start götürən Vaqif Poeziya Günləri iyulun 14-15-də mədəniyyət paytaxtımız Şuşada davam edəcək.

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi deyib ki, Şuşa azad olunandan sonra artıq 3-cü ildir Vaqif Poeziya Günləri keçirilir: “Hələ sovet dövründə Vaqif Poeziya Günləri Vaqifin vətənində – Qazaxda başlayırdı, Şuşada davam edirdi. Bu il qərar belə oldu ki, poeziya günləri ənənəyə uyğun olaraq Qazaxda başlasın”.

Ədəbiyyatşünas Rüstəm Kamal çıxışında qeyd edib ki, Vaqif yazılı ədəbiyyatımızın milli-etnik kodlarla köklənməsində və poeziyamızda xalqımızın öz obrazının yaradılmasında müstəsna rolu olmuş şairdir. Vaqif başdan-ayağa işıq poeziyasıdır. Onun şeirlərində ən çox mənalanan, ən çox hallanan, ən çox diqqət çəkən “nur”, “işıq”, “şölə” sözləridir. Alim bildirib ki, dövlətimizin başçısı İlham Əliyev və Heydər Əliyev Fondu mədəniyyətimizi, ədəbiyyatımızı himayə edir, klassiklərimizin yenidən milli yaddaşımıza qayıtmasında böyük rol oynayır. Buna görə bir ziyalı kimi ölkə rəhbərliyinə təşəkkür edirəm.

Şair-publisist Əkbər Qoşalı bildirib ki, builki Vaqif Poeziya Günləri Türk dünyasından gəlmiş şair və yazıçıların iştirak etməsi ilə də əlamətdardır.

Şair İbrahim İlyaslı da Vaqifin Azərbaycan ədəbiyyatındakı misilsiz xidmətlərindən, onun yaradıcılığının ədəbiyyatımıza bəxş etdiyi zənginliklərdən danışıb.

Daha sonra söz sənətçilərə verilib, Molla Pənah Vaqifin şeirləri səslənib.

## “Ağdamın dirçəlişi”

### Düşmənin 27 il yerlə yeksan etdiyi şəhər yenidən qurulur...

30 il əvvəl bu günlər Ağdam ən ağır günlərini yaşayırdı. Ermənistan silahlı qüvvələrinin Ağdam istiqamətində genişmiqyaslı hücumu başlamışdı. Ağdam Qarabağın ən böyük rayonu idi və onun ərazisinin üçdə ikisinin işğalı belə Azərbaycan üçün çox ağır itki idi. İşğal 27 ildən çox sürdü...

Bu gün Ağdam dirçəlir, düşmənin viran qoyduğu torpaq, yerlə yeksan etdiyi şəhər yenidən qurulur.

İyulun 13-də Ağdam şəhərindəki Konfrans Mərkəzində “Ağdamın dirçəlişi” adlı tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəhbər heyəti, ölkəmizin diplomatik nümayəndəliklərinin rəhbərləri, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin əməkdaşları iştirak ediblər.



Tədbir işğaldan azad olunmuş ərazilərdə yenidənqurma işləri ilə bağlı videoçarxın nümayişi ilə başlayıb.

davamı səh. 2-də

## Azərbaycan Ermənistanla münasibətlərdə sülh gündəliyinə sadiqdir

ABŞ-nin dövlət katibi Antoni Blinken iyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Antoni Blinken ölkəsinin Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə müzakirələrə davamlı dəstəyini ifadə edib, danışıqlar prosesində yaradıcı və qarşılıqlı güzəştlərə əsaslanan yanaşmanın vacibliyini bildirib.

Prezident İlham Əliyev Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması məqsədi daşıyan sülh gündəliyinə sadiqliyini və iki ölkə arasında sülh müqaviləsinin təşəbbüskarı olaraq onun imzalanmasını dəstəklədiyini vurğulayıb.

səh. 2

## “Dəmir yumruq” baletinin premyerası olacaq




Azərbaycan Bəstəkarlar İttifaqı Gənclərlə iş bölməsinin rəhbəri, Bakı Musiqi Akademiyasının doktorantı və Elmi-tədqiqat mərkəzinin əməkdaşı, bəstəkar İlahə Qismət “Dəmir yumruq” adlı balet yazıb.

İyulun 19-da BMA-nın Opera studiyasında 44 günlük Vətən müharibəsi haqqında ilk irihəcmli musiqi əsəri olan birpərdəli baletin premyerası keçiriləcək.

səh. 3

## 41 il öncə... Şuşa... Vaqif Poeziya Günü...

### Mədəniyyət paytaxtımızda ilk söz-sənət bayramı mətbuatda necə işıqlandırılmışdı?

Xəbər verdiyimiz kimi, iyulun 14-15-də Şuşada növbəti Vaqif Poeziya Günləri keçiriləcək. Əsası 1982-ci ildə qoyulan bu tədbir Qarabağın, Şuşanın qara günləri başlayana qədər hər il əsl söz-sənət bayramı kimi mədəniyyət tariximizə yazılıb.




Bəs 41 il əvvəl (29 iyul 1982-ci il) Şuşada ilk dəfə təşkil olunan bu tədbir o dövrün mətbuatında necə əks olunmuşdu? “Kommunist” qəzetinin 3 avqust 1982-ci il tarixli sayında dərc olunan “Azərinform”un (indiki AZƏRTAC) müxbirlərinin reportajına nəzər salaq...

davamı səh. 4-də

## Musiqimizin tək Mirzəsi...

İyulun 16-da Azərbaycan musiqi sənətinin görkəmli nümayəndəsi, Xalq artisti, müğənni Mirzə Babayevin (1913-2003) anadan olmasının 110 illiyi tamam olur.



İlk ali təhsilini Sənaye İnstitutunun Memarlıq fakültəsində almış Mirzə Babayev müğənnilik fəaliyyətinə 40-cı illərin əvvəlində görkəmli bəstəkar Tofiq Quliyevin rəhbərlik etdiyi caz orkestrində başlayıb. 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına (indiki BMA) – məşhur müğənni Bülbülün sinfinə daxil olub. 1953-cü ildə konservatoriya təhsilini başa vuran istedadlı müğənni ürəyəyatımlı səsi, gözəl ifa tərzi, dərin musiqi duyumu və yüksək səhnə mədəniyyəti ilə qısa müddətdə tamaşaçıların böyük rəğbətini qazanıb.

Sənətkar müxtəlif illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin estrada orkestrində, Azərbaycan Dövlət Filarmoniyasında, Azərbaycan Dövlət Konsert Birliyində çalışıb. Teleradionun qızıl fondunda onun ifasında saxlanılan xeyli sayda mahnısı var.

Mirzə Babayev aktyor kimi də Azərbaycan kinosuna töhfələr verib, “Dərviş Parisi partladır”, “Dəli Kür”, “Telefonçu qız”, “Romeo mənim qonşumdur”, “Qorxma, mən səninləyəm!”, “Bəyin oğurlanması” və digər ekran əsərlərində rəngarəng obrazlar qalereyası yaradıb.

Mirzə Babayev Azərbaycan estrada musiqisini yüksəklərə qaldırıb, onu sevdirib, səsi və ifaçılıq məharəti ilə öz orijinal üslubunu yaradıb, musiqimizi xarici ölkələrdə də layiqincə təmsil edib.

## “Lənkəran xanının vəziri” Laçında



səh. 3

## Mədəniyyət Nazirliyi tərəfindən Kadr Ehtiyatı Bankı yaradılır

səh. 3

# “Bütün güclərimizi səfərbər etmişik...”

## Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsi yenidən qurulacaq

Bu ilin altı ayında isə əsas istiqamətimiz ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi.



Prezident İlham Əliyev bu sözləri iyulun 11-də 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı deyib.

Dövlət başçısı qeyd edib ki, bütövlükdə altı ay ərzində iqtisadiyyatımız inkişaf edib, mütləq rəqəmlər o qədər də böyük olmasa da, qeyri-neft sektoru və qeyri-neft sektorunun sənaye sahəsi kifayət qədər artıb. Qeyri-neft sənayesində artım 6,5 faiz, ümumilikdə qeyri-neft sektorunda 3 faizdən çoxdur.

Prezident diqqətə çatdırıb ki, 2023-cü ildə dövlət büdcəsi rekord həddə, 33 milyard manatdan çox səviyyəyə qalxıb. Üstəlik, ilin birinci yarısında əlavə gəlirlərin əldə edilməsi imkan verib ki, büdcəyə əlavələr edək və indi o, 36 milyard manatdan çoxdur. Bu, bizə imkan verir ki, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra edək, ilk növbədə, azad edilmiş torpaqlarda geniş quruculuq işlərinə növbəti təkan verək və hərbi gücümüzü artıraq. “Dürüstləşmə zamanı bizim əsas iki istiqamətimiz də çox açıq-aydın qoyulmuşdur. Bütövlükdə 3 milyard manatdan çox vəsait əlavə edildi. Bunun 1,8 milyard manat hissəsi Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsinə istiqamətləndirilmişdir, 1,1 milyard manat isə hərbi potensialımızın güclənməsinə. Yəni, ayrılmış məbləğin mütləq əksəriyyəti bu iki istiqamətə yönəldilmişdir və bu da təbiidir. Çünki bu gün ölkə qarşısında duran iki əsas vəzifə məhz bu vəzifələrdir”, – deyə İlham Əliyev bildirib.

İlin ilk altı ayında ümumi daxili məhsulun 60 milyard manatdan çox olmasını da mühüm nəticə kimi qeyd edən dövlət başçısı eyni zamanda bildirib ki, inflyasiyanın ikirəqəmli olması bizi düşündürməlidir: “Ümid edirəm ki, ilin sonuna qədər inflyasiya birrəqəmli səviyyəyə düşə bilər. Burada təbii səbəblərlə yanaşı, subyektiv səbəblər də vardır. Onlar daha ciddi araşdırılmalıdır və ilin sonuna qədər atılacaq addımlarla bağlı təkliflər verilməlidir. Çünki Azərbaycanın bütövlükdə iqtisadi potensialı və iqtisadi sahədə əldə edilmiş nəticələr fonunda inflyasiyanın 12 faiz səviyyəsində olması, əlbəttə ki, arzuolunan deyil”.

Büdcə dürüstləşməsindən sonra iki əsas istiqamətdən biri olan Qarabağın və Şərqi Zəngəzurun bərpası barədə danışan İlham Əliyev bildirib ki, hər şey nəzərdə tutduğumuz planlardan daha sürətlə icra edilir: “Bütün güclərimizi səfərbər etmişik. Artıq bu il Talış kəndinə və Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıtmasını təmin etmişik. İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq beş yaşayış məntəqəmizdə – bir şəhər və dörd kəndimizdə (ötən il məskunlaşma başlanan Zəngilanın Ağalı kəndi də daxil – red.) vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. Mən şəxsən 30 yaşayış məntəqəsinin – 8 şəhər, 22 qəsəbə və kəndin təməlinin qoyulmasında iştirak etmişəm. Baş planlar hazırlanıb təsdiqlənib, bir çox yerlərdə fəal inşaat işləri aparılır... Laçın şəhərinin timsalında bunu deyə bilərəm ki, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsi tamamilə bərpa edilib və yeddi yüzdən çox ailə üçün burada həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır. Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq”.

Prezident qeyd edib ki, 2024-cü ilin investisiya proqramı hazırlananda və gələn ilin büdcəsində Qarabağın və Şərqi Zəngəzurun investisiya xərclərinə baxacağıq və elə etməliyik ki, maliyyə qıtlığı ucbatından vaxt itirməyək.

# Azərbaycan Ermənistanla münasibətlərdə sülh gündəliyinə sadiqdir

ABŞ-nin dövlət katibi Antoni Blinken iyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Antoni Blinken ölkəsinin Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə müzakirələrə davamlı dəstəyini ifadə edib, danışıqlar prosesində yaradıcı və qarşılıqlı güzəştlərə əsaslanan yanaşmanın vacibliyini bildirib. O, Laçın sərhəd-gömrük buraxılış məntəqəsi vasitəsilə keçidin önəmini vurğulayaraq dayanıqlı sülhün əldə edilməsi üçün danışıqlardakı müsbət dinamikanın saxlanılmasının əhəmiyyətinə toxunub.

Prezident İlham Əliyev Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması məqsədi daşıyan sülh gündəliyinə sadiqliyini və iki ölkə arasında sülh müqaviləsinin təşəbbüskarı olaraq onun imzalanmasını dəstəklədiyini vurğulayıb. Dövlətimizin başçısı Antoni Blinkenin və ABŞ hökumətinin iki ölkə arasında sülh gündəliyinin irəli aparılmasına göstərdiyi davamlı dəstəyinin yüksək qiymətləndirildiyini qeyd edib və yaxın günlərdə Ermənistan tərəfi ilə yüksək səviyyədə növbəti görüşün keçiriləcəyini bildirib.

Prezident İlham Əliyev Laçın sərhəd-gömrük buraxılış məntəqəsi vasitəsilə humanitar yüklərin, fərdi keçidlərin və tibbi təxliyənin normal qaydada təşkil olunmasına baxmayaraq, iyunun 15-də Ermənistan tərəfindən törədilmiş silahlı təxribatı və Beynəlxalq Qırmızı Xaç Komitəsinin müşayiəti ilə həyata keçirilən humanitar daşımalarda qaçaqmalçılıq hallarının aşkar edildiyini diqqətə çatdırıb və bu xüsusda araşdırmaların aparıldığını vurğulayıb.

Əlavə edək ki, Prezident İlham Əliyev ilə Ermənistanın hökumət başçısı Nikol Paşinyan arasında növbəti görüşün iyulun 15-də Brüsseldə keçirilməsi gözlənilir.

# Prezident və birinci xanım Mərkəzi Nəbatat Bağında aparılan işlərlə tanış olublar

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyulun 12-də Bakıda Mərkəzi Nəbatat Bağının ərazisində aparılan abadlıq, yenidənqurma və tikinti işlərinin gedişi ilə tanış olublar.



Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bağda həyata keçirilən işlər barədə məlumat verib. Bildirilib ki, yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazisi 39 hektardan 44,8 hektara çatdırılıb. Vaxtilə ərazidə yerləşən avtomobil təmiri boksları, bir neçə ictimai-iaşə obyekti və müxtəlif təyinatlı qanunsuz tikililər sökülüb. Hazırda bağın ərazisində yeni, müasir layihəyə əsasən geniş bərpa və yenidənqurma işləri müvəffəqiyyətlə davam edir. Layihəyə əsasən, bağda müxtəlif növ yeni ağacların əkilməsi, müasir dizaynlı guşələrin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, Mərkəzi Nəbatat Bağında aparılan yenidənqurma işləri Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq həyata keçirilir.

Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan bu bağ elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərib. Nəbatat bağında 2500-dən çox ağac, kol, ot bitkiləri və sair var. Burada 130-a yaxın nadir bitki növü qorunur. Ötən il Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə “Mərkəzi Nəbatat Bağı” publik hüquqi şəxs Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilib.

Görülən işlərlə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verib.

Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınır, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulur. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Aparılan yaşıllaşdırma işlərinə və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük dəstək verir.

# “Ağdamın dirçəlişi”

## Düşmənin 27 il yerlə yeksan etdiyi şəhər yenidən qurulur...

*əvvəli səh. 1-də*

Tədbirdə xarici işlər naziri Ceyhun Bayramov, Qarabağ İqtisadi Rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxış ediblər.

“Prezident İlham Əliyevin dediyi kimi, Ağdamın, Qarabağımızın bərpa edilməsi, dirçəldilməsi, buranı uzun illər Vətən həsrəti ilə yaşayan məcburi köçkünlərimiz və qaçqınlarımız üçün qısa müddət ərzində yenidən gözəl bir yaşayış məkanına çevirmək ölkəmizin bir nömrəli məqsədidir”, – deyə xarici işlər naziri Ceyhun Bayramov bildirib.



Nazir qeyd edib ki, iyulun 11-də Prezident İlham Əliyev 2023-cü ilin altı ayının sosial-iqtisadi inkişafının nəticələrinə dair müşavirədə çox önəmli yeni mesajlar verib. Mesajlar ondan ibarətdir ki, Azərbaycan dövlətinin çox böyük potensialı var. Azərbaycan dövləti ən yüksək standartlarla Qarabağımızı bərpa etməyə qadirdir, bunu tez bir zamanda, keyfiyyətlə edəcək. Buna nə qədər resurs lazımdırsa, Azərbaycan dövləti əsirgəməyəcək. 2023-cü ildə ölkəmizin sosial-iqtisadi inkişafı buna imkan verdi, dövlət büdcəsinə yenidən baxıldı. Prezidentin qeyd etdiyi kimi, dövlət büdcəsinin artırılan 3,1 milyard manatının mütləq əksəriyyəti Qarabağın dirçəldilməsinə və ordu quruculuğuna yönəldiləcək.

Ceyhun Bayramov vurğulayıb ki, Prezidentin siyasətinə uyğun olaraq Azərbaycan regionda sülh, tərəqqi, inkişaf gündəliyini irəli aparır. Bu, bizim bir nömrəli prioritetimizdir. Ancaq bununla paralel olaraq, təbii ki, tarixi cinayətlər, tarixin təkrarlanmaması üçün ölkəmizin faciəvi səhifələri unudulmamalıdır. Bu da bizim gündəliyimizin önəmli bir hissəsi olmalıdır. Nazir qeyd edib ki, işğalın davam etdiyi illərdə Azərbaycan insanlarının çəkdikləri əziyyət, pozulmuş hüquqları, 30 ilə yaxın məcburi köçkünlük və qaçqınlıq həyatı yaşamış insanlar üçün bu gün mina təhdidinin aradan qaldırılması, Ermənistandan qovulmuş insanların bu ərazilərə qayıtmaq imkanının yaradılması və bir sıra digər istiqamətlər üzrə davamlı iş aparılmalıdır.

Nazir bildirib ki, Azərbaycan tərəfinin mövqeyi birmənalıdır. Azərbaycanın çağırışı ondan ibarətdir ki, təxribatlardan çəkinmək lazımdır. Hər kəs, ilk növbədə, Ermənistan başa düşməlidir ki, heç bir təxribat cavabsız qalmayacaq və ən sərt formada cavablandırılacaq.

### 2026-cı ilədək Qarabağ iqtisadi rayonu üzrə 66 min sakin geri qayıdacaq

Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə bütün bərpa və reabilitasiya prosesini 3 əsas mərhələyə bölmək olar. 1-ci mərhələdə 2026-cı ilədək Qarabağ iqtisadi rayonu üzrə 2 şəhər mərkəzinin və 32 kəndin tikilməsi, 3 məntəqənin turizmyönlü inkişaf etdirilməsi, torpaq islahatı ilə bağlı təkliflərin hazırlanması və ən azı 66 min sakinimizin öz dədə-baba torpaqlarına geri qayıdışının təmin edilməsi qarşımızdakı əsas hədəflərdir.





Bunu isə Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov deyib. O qeyd edib ki, sosial infrastruktur baxımından 2026-cı ilin sonunadək Qarabağ iqtisadi rayonu üzrə Ağdam və Füzuli şəhərlərində 8 yaşayış məhəlləsinin, Hadrut və Suqovuşan qəsəbələrinin və 32 kəndin tikilməsi planlaşdırılır. Artıq Talış kəndində 1-ci faza üzrə 20 fərdi yaşayış evi və 10 qeyri-yaşayış obyekti tamamlanaraq keçmiş məcburi köçkünlərə təhvil verilib.

Emin Hüseynovun sözlərinə görə, səhiyyə infrastrukturu üzrə Ağdam və Füzuli şəhərlərində 2 mərkəzi xəstəxananın tikintisinə yaxın zamanlarda başlanılacaq. Ağdamda və Füzulidə Zəfər və açıq hava altında İşğal muzeyləri olacaq. Həmçinin hazırda Füzuli və Ağdam şəhərlərinin mərkəzi parkları və Ağdam Meşə Parkının tikinti layihələri hazırlanma mərhələsindədir.

Bununla yanaşı, hazırda 4 məktəb layihəsi həyata keçirilir. Tərtər rayonunun Suqovuşan qəsəbə tam orta məktəbində bərpa işləri yekunlaşıb, Talış kənd tam orta məktəbi və uşaq bağçası isə artıq istifadəyə verilib. Ağdam şəhərində 2, Füzuli şəhərində isə 1 uşaq bağçası üzrə layihələndirmə işləri aparılır.

“Şübhəsiz ki, mədəni və dini irsin qorunub saxlanılması bizim digər prioritetimizdir. Hazırda Ağdamdakı Cümə və Qiyaslı məscidləri bərpa olunur, Suqovuşan və Hadrut qəsəbələrində isə yeni məscidlərin tikintisi üzrə layihələndirmə işləri aparılır. Pənahəli xanın sarayı – İmarətdə və Şahbulaq qalasında yaxın vaxtlarda bərpa işlərinə başlanılacaq. İmarətdə yerləşən Azərbaycanın görkəmli şairəsi və xan qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsi özünün ilkin görkəmində artıq bərpa olunub”, – deyə Prezidentin xüsusi nümayəndəsi bildirib.

Tədbirdən sonra iştirakçılar Ağdam şəhərində aparılan bərpa və quruculuq işləri ilə tanış olublar.

# Birləşmiş Ərəb Əmirlikləri ilə turizm əlaqələri müzakirə edilib

Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ilə turizm əlaqələri iyulun 13-də Dövlət Turizm Agentliyinin (DTA) sədri Fuad Nağıyevlə bu ölkənin Azərbaycandakı səfiri Məhəmməd əl-Bluşi arasında keçirilən görüşdə müzakirə olunub.

DTA-dan bildirilib ki, görüşdə turizm sahəsində əməkdaşlığın genişləndirilməsi, ölkələrimiz arasında vizasız rejimin tətbiqinin qarşılıqlı səfərlərin artmasına verəcəyi töhfə, BƏƏ şirkətlərinin Azərbaycanın turizm sahəsinə investisiya imkanları barədə fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, 2023-cü ilin birinci yarısında BƏƏ-dən Azərbaycana səfər edən vətəndaşların sayı 18 min 884 nəfər olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 23 faiz artım deməkdir. Hazırda BƏƏ-nin Dubay, Şarjah və Əbu-Dabi şəhərlərindən ölkəmizə həftədə 50 dəfə olmaqla birbaşa uçuşlar həyata keçirilir.

# Azərbaycanlı rejissorun sənədli filmi Tbilisidə mükafat qazanıb

Rejissoru Ələmdar Faiq, prodüseri Türkan Hüseyn olan “Qara pişik, ağ şanı” sənədli filmi Tbilisidə keçirilən “CineDOC” beynəlxalq festivalının mentorluq proqramında “Current Time TV”nin mükafatına layiq görülüb. Film festivala “Chinar film”in layihəsi olaraq təqdim edilib.

Film özünün keçmiş səhvlərindən xilas olmaq üçün Bakı ətrafında yerləşən bağ evinə köçən Firuzənin və nəvəsi Ələmdarın hekayəsidir. Burada Firuzə öz bağında üzümçülüklə məşğul olur və həyatə gələn qara pişiyi bəsləyir. Günlərin birində ordudan yeni qayıtmış nəvəsi Ələmdar ona baş çəkir və hər ikisi keçmiş ailə səhvləri ilə üzləşirlər.

Qeyd edək ki, Azərbaycan Kinematoqrafçılar İttifaqı da bu layihəyə kiçik maliyyə dəstəyi ayırıb.

# Qara Qarayevin evində sənət görüşü

## Gənclər bəstəkar Tofiq Bakıxanovun xatirələrini dinləyiblər

Qara Qarayevin Ev-Muzeyində Mədəniyyət Nazirliyinin dəstəyi, “İrəli” İctimai Birliyinin təşkilatçılığı ilə Xalq artisti, görkəmli bəstəkar Tofiq Bakıxanovla görüş keçirilib.

İctimai birlikdən verilən məlumata görə, tədbir Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “MədəniyyətimİZ” layihəsi çərçivəsində təşkil edilib.

Muzeyin direktoru Züleyxa Qarayeva-Bağırova bildirib ki, il ərzində burada müxtəlif miqyaslı tədbir və layihələr həyata keçirilir. O, “Heydər Əliyev İli”nə həsr olunmuş “MədəniyyətimİZ” layihəsi çərçivəsində keçirilən görüşün ölkəmizdə mədəniyyət və incəsənətin gənclər arasında təbliği nöqteyi-nəzərdən önəmli olduğunu vurğulayıb.

“İrəli” İctimai Birliyinin sədri Şahin Rəhmanlı “MədəniyyətimİZ” layihəsi barədə məlumat verib.



Diqqətə çatdırıb ki, layihənin “Heydər Əliyev İli” çərçivəsində keçirilməsi təsadüfi deyil. Ulu öndər fəaliyyəti dövründə mədəniyyət sahəsinə hər zaman böyük diqqət ayırıb.

Xalq artisti Tofiq Bakıxanov çıxış edib, müəllifi olduğu əsərlərdən danışıb, Ümummilli lider Heydər Əliyevlə, eləcə də müəllimi Qara Qarayevlə bağlı xatirələrini bölüşüb.

Tədbir “Bəstəkarlıq sənətinin inkişafı: Ümummilli lider Heydər Əliyevin mədəniyyət siyasəti kodeksində”, “Azərbaycan bəstəkarlarının yaradıcılığında Heydər Əliyev fenomeni” və “Azərbaycan bəstəkarlıq sənətinin qorunması, ötürülməsi, tədqiqi və təbliğində gənc nəslin rolu” mövzuları ətrafında müzakirələrlə davam edib.

Görüşün bədii hissəsində gənc musiqiçilərin ifaları təqdim olunub.

Layihə çərçivəsində mədəniyyət xadimləri ilə gənclərin müxtəlif məkanlarda interaktiv görüşləri nəzərdə tutulub.

# Mədəniyyət Nazirliyi Kadr Ehtiyatı Bankı yaradır

Mədəniyyət sahəsində aparılan institusional islahatlara ixtisaslı və təcrübəli insan resurslarının cəlb edilməsi, təhsil və idarəçilik keyfiyyətləri yüksək olan perspektivli kadrların seçilməsi məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən Kadr Ehtiyatı Bankı formalaşdırılır.

Kadr Ehtiyatı Bankı mədəniyyət sahəsində ixtisaslaşmış, təcrübəli, bilikli, idarəçilik keyfiyyətlərinə malik, dövlət, özəl və ya özünüməşğulluq sahəsində fəaliyyət göstərən şəxslərin qanunvericiliyə uyğun olaraq yaradılan və mühafizə edilən, dövlət, özəl sektor və vətəndaş cəmiyyəti arasında kadr mübadiləsinin gücləndirilməsinə xidmət edən məlumat bazasıdır.

Aşağıdakı meyarlardan hər hansı birinə uyğun olan şəxslər müvafiq keçid vasitəsilə qeydiyyatdan keçərək səhifədə qeyd olunan məlumatları daxil etməklə Kadr Ehtiyatı Bankına müraciət edə bilərlər:

*– İncəsənət, ədəbiyyat, mədəni və yaradıcı sənayelər, mədəni irs və mədəniyyətə aid edilən digər sahələr üzrə ali təhsili olan şəxslər;*

*– İdarəetmə sahəsində ali təhsili olan və mədəniyyət sahəsi üzrə azı 3 il təcrübəsi olan şəxslər;*

*– Mədəniyyət sahəsi üzrə xarici ölkələrdə ali təhsil almış və ya işləmiş şəxslər;*

*– Azərbaycanın gənc istedadlarının “Qızıl kitabı”na daxil edilməklə Azərbaycan Respublikası Prezidentinin xüsusi təqaüdünə və ya Gənclər üçün Prezident Mükafatına layiq görülmüş şəxslər.*

Qeydiyyat üçün keçid: http://bit.ly/3DcGNUT

# Sumqayıt Dövlət Dram Teatrı Lənkəranda çıxış edib



Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100, Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində regionlarda qastrollar davam edir.

Sumqayıt Dövlət Dram Teatrının kollektivi iyulun 12-də Lənkəran Dövlət Dram Teatrının səhnəsində görkəmli türk yazıçısı Əziz Nesinin “Öldür məni, canciyər” komediyasını oynayıb.

Məişət mövzulu tragikomik hadisələrlə zəngin səhnə işinin quruluşçu rejissoru Xalq artisti, Prezident mükafatçısı Firudin Məhərrəmov, quruluşçu rəssamı Nabat Səmədova, musiqi tərtibatçısı Anar Süleymanovdur. Tamaşada rolları Əməkdar artistlər Növrəstə Həşimova, İlahə Səfərova və aktyor Mətləb Səfərli ifa edib.

Səhnə əsəri lənkəranlı teatrsevərlər tərəfindən maraqla qarşılanıb.

# “Lənkəran xanının vəziri” Laçında

## Şuşa teatrının qastrol tamaşası

Şuşa Dövlət Musiqili Dram Teatrı iyulun 11-də Laçın şəhərində sakinlərin qonağı olub. Yaradıcı kollektiv Laçın şəhərində tədbir və toplantılar üçün qurulmuş çadırda sakinlər qarşısında “Lənkəran xanının vəziri” komediyasını nümayiş etdirib.




Teatrın direktoru Əməkdar artist Yadigar Muradov çıxışında Laçının işğaldan öncəki gözəl günlərini, bu məkanla bağlı xatirələrindən kövrək anları yada salıb.

Tamaşada baş rollardan birinin ifaçısı, əslən laçınlı Mətanət Eres Şuşa ilə Laçın arasındakı 32 kilometrlik məsafənin tarixin və taleyin hökmü ilə 31 ilə qət edildiyini söyləyib, bu günləri yaxınlaşdıran hər kəsə təşəkkürünü bildirib.

Səhnə əsəri maraqla qarşılanıb, M.F.Axundzadənin məşhur komediyasının qəhrəmanları tamaşaçıları xeyli güldürüb.




Bakı Abadlıq Xidmətinin nümayəndəsi Lalə Əliyeva müasir şəhər kimi dirçəlmiş Laçının qısa müddətdə Qarabağın sənət, elm, yaradıcılıq mərkəzlərindən birinə çevriləcəyini vurğulayıb. O, doğma yurda qayıdanların, xüsusilə də balaca sakinlərin asudə vaxtının, mədəni istirahətinin təşkili üçün Bakı Abadlıq Xidmətinin burada müxtəlif layihələr həyata keçirmək niyyətində olduğunu deyib.

Qeyd edək ki, Laçın sakinlərinin doğma şəhərə qayıdışının başlandığı mayın 28-dən etibarən burada Qurban bayramı münasibətilə konsert, “Laçın” müstəqil teatr studiyasının “Arzular bağı” tamaşası, uşaqlar üçün dərnəklərdə əyləncələr də təşkil edilib. Yaxın zamanda Laçında ölkə teatrlarının rejissor və aktyor heyətinin qatılacağı “yay məktəbi”nin də təşkili nəzərdə tutulur.

# Ölkəmiz Dünya Əqli Mülkiyyət Təşkilatının iclaslarında təmsil olunur

İsveçrənin Cenevrə şəhərində Dünya Əqli Mülkiyyət Təşkilatı (DƏMT) Baş Assambleyasının, eləcə də təşkilata üzv dövlətlərin təmsil olunduğu müxtəlif assambleyaların 64-cü iclası keçirilir.



Tədbirdə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi də təmsil olunur. Agentliyin nümayəndə heyəti Cenevrə şəhərinə ezam olunub.

Baş Assambleyanın iclasının birinci günü vəzifəli şəxslərin seçkisi keçirilib. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Kamran İmanov 180-dək dövləti birləşdirən Ədəbi və bədii əsərlərin qorunması haqqında Bern Konvensiyası İttifaqı Assambleyasının sədri seçilib. 1886-cı ildə qəbul edilmiş Bern Konvensiyası əsərlərin və onların müəlliflərinin hüquqlarının qorunması sahəsində ən böyük beynəlxalq müqavilədir. Qeyd edək ki, K.İmanov 2021-2023-cü illərdə DƏMT-nin Müəlliflik Hüququna dair Müqaviləsinin Assambleyasına sədrlik edib.

K.İmanov Baş Assambleyanın iclasına onlayn rejimdə qoşularaq çıxış edib. O, Azərbaycan Respublikasının nümayəndə heyəti adından iclas iştirakçılarını salamlayıb və assambleyaların işinə uğurlar arzulayıb. Ölkəmizdə əqli mülkiyyət sahəsində görülən işlərdən söz açan K.İmanov patent və əmtəə nişanları üzrə “bir pəncərə” prinsipi ilə fəaliyyət göstərən PƏNAH elektron sistemi barədə məlumat verib. Bildirib ki, sistem üzrə sənədlərin qrafik materiallarının 3D model formatında qəbuluna başlanılıb.

DƏMT-yə üzv dövlətlərin assambleyalarının 64-cü iclası iyulun 14-də başa çatacaq.

# Şəhid polkovnik-leytenanta həsr olunmuş tədbir keçirilib




Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasında şəhid polkovnik- leytenant Vidadi Xəlilova (1982-2020) həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Azərbaycan Silahlı Qüvvələrinin zabiti, Vətən müharibəsi şəhidi Vidadi Xəlilovun qəhrəmanlıq salnaməsi, döyüş yolu haqqında ətraflı məlumat verilib, videoçarx nümayiş olunub.

Bədii hissədə qəhrəman şəhidə həsr olunan şeirlər səsləndirilib, musiqilər ifa olunub.

Polkovnik-leytenant Vidadi Vaqif oğlu Xəlilov 30 oktyabr 2020-ci ildə Laçın rayonu istiqamətində gedən döyüşlərdə həlak olub. Doğulduğu Göyçay şəhərinin Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra “Azərbaycan Bayrağı” ordeni, “Vətən uğrunda” medalı, Cəbrayılın, Qubadlının, Laçının azad olunmasına görə medallarla təltif edilib.

# General Polad Həşimovun şəxsi əşyaları muzeyə təhvil verilib

Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun şəxsi əşyaları həyat yoldaşı Ofeliya Salmanova tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinə təqdim edilib.



Muzeydən bildirilib ki, ekspozisiyada general-mayor Polad Həşimovun şəxsi əşyalarının nümayişi məqsədilə xüsusi vitrin ayrılıb. Ekspozisiya tezliklə ziyarətçilərin ixtiyarına veriləcək.

General-mayor Polad Həşimovla birlikdə Azərbaycan Ordusunun 12 hərbi qulluqçusu 12-16 iyul 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin sərhəddə, Tovuz rayonu istiqamətində törətdiyi genişmiqyaslı təxribatın qarşısını alarkən qəhrəmancasına həlak olublar. Polad Həşimov iyulun 14-də şəhid olub.

Ağır döyüşlər zamanı həmçinin polkovnik İlqar Mirzəyev, mayor Anar Novruzov, mayor Namiq Əhmədov, gizir Yaşar Babayev, gizir İlqar Zeynallı, müddətdən artıq hərbi xidmət qulluqçuları – Elçin Mustafazadə, Nazim İsmayılov, Vüqar Sadıqov, baş leytenant Rəşad Mahmudov, baş əsgər Elşad Məmmədov və əsgər Xəyyam Daşdəmirov şəhidlik zirvəsinə yüksəlib.

# Kinooperator Teyyub Axundovun arxiv fondu yaradılıb



Azərbaycan Dövlət Film Fondunda Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, kinooperator Teyyub Axundovun (1920-1991) şəxsi arxiv fondu yaradılıb.

Fonda sənətkarın yaradıcılığı ilə bağlı fotosənədlər, diplom və fəxri fərmanları, şəxsi sənədləri, qəzet və jurnallar daxil edilib.

Teyyub Axundov “Görüş” (1955), “Mahnı belə yaranır” (1957), “Onu bağışlamaq olarmı?” (1959), “Mollanın sərgüzəşti” (1960), “Romeo mənim qonşumdur” (1963), “Sehrli xalat” (1964), “Dağlarda döyüş” (1967), “Şərikli çörək” (1969), “Qatır Məmməd” (1974), “Tütək səsi” (1975), “Birisigün, gecəyarısı…” (1981) və başqa bədii filmlərin təsvir rejissoru (quruluşçu operatoru) olub.

# “Cadenza” orkestri mövsümün son konsertinə hazırlaşır

İyulun 18-də Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında “Cadenza” orkestrinin konserti keçiriləcək.

Mövsüm boyu silsilə konsert proqramları təqdim edən orkestrin üzvləri bağlanış konsertində dünya və Azərbaycan bəstəkarlarının əsərlərini ifa edəcək. Konsertə giriş sərbəst olacaq.

Xatırladaq ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində yaradılan “Cadenza” orkestri fəaliyyətini iki istiqamətdə qurur. Birinci istiqamət musiqi maarifçiliyidir. Kollektiv ölkəmizin şəhər və rayonlarında mütəmadi olaraq müxtəlif auditoriyalar üçün izahlı konsertlər təşkil etməyi, musiqi tarixinin bütün dövrlərində (renessans, barokko, klassisizm, romantizm, modernizm və postmodernizm) yazılmış əsərləri səsləndirməyi, auditoriya ilə interaktiv təmaslar qurmağı nəzərdə tutur. İkinci istiqamət Azərbaycanda müasir musiqi ifaçılığı və çağdaş dünya musiqisi ilə təmaslar qurmaq ənənəsini yaşatmaqdan ibarətdir.

**Lalə Azəri**

# “Dəmir yumruq” baletinin premyerası olacaq

Azərbaycan Bəstəkarlar İttifaqı Gənclərlə iş bölməsinin rəhbəri, Bakı Musiqi Akademiyasının (BMA) doktorantı və Elmi-tədqiqat mərkəzinin əməkdaşı, bəstəkar İlahə Qismət “Dəmir yumruq” adlı balet yazıb.

İyulun 19-da BMA-nın Opera studiyasında 44 günlük Vətən müharibəsi haqqında ilk irihəcmli musiqi əsəri olan birpərdəli baletin premyerası keçiriləcək.

Libretto müəllifi Əməkdar artist Yuri Lobaçev olan əsərin baletmeysterləri Y.Lobaçev və Əməkdar artist Ceyhun Qubadovdur.

Baletin premyerası “Şuşa fatehlərinin Zəfər yolu” layihəsi çərçivəsində gerçəkləşəcək. Tamaşa ilk olaraq Vətən müharibəsi iştirakçıları və onların ailələri üçün nümayiş olunacaq.

Layihə “Mədəni Əlaqələrin İnkişafına Dəstək”, “20 Yanvar Şəhid Ailələrinin Hüquqlarının Təmin Olunması”, “Skandinaviya Ölkələri ilə Mədəni və Elmi Əlaqələr” İctimai birliklərinin koalisiyası adından Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən “Müharibə iştirakçılarının sosial vəziyyətinin yaxşılaşdırılmasına dair təşəbbüslər” istiqaməti üzrə keçirilmiş müsabiqədə qalib olub.

Baletdə Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı, Vətən Müharibəsi Qəhrəmanı Adil İbrahimlinin timsalında I Qarabağ müharibəsindən başlayaraq Şuşa zəfərinə doğru gedən keşməkeşli yol tərənnüm edilir. I Qarabağ müharibəsi zamanı hələ balaca olan uşağın gözü qarşısında mənfur düşmənlər tərəfindən atasının amansızlıqla qətlə yetirilməsi nəticəsində aldığı travma onun kiçik qəlbində dərin iz qoyur. Daxili aləmində toplanmış qisas istəyi və Vətən həsrəti ilə böyüyərək gənclik illərinə çatan baş qəhrəman artıq zamanın dolduğunu, Ali Baş Komandanın “İrəli!” komandası ilə Vətən torpaqlarının qurtuluşunun başlandığını eşidir. Xalqının və ailəsinin intiqamını almaq üçün Vətən müharibəsini şans kimi dəyərləndirən gənc qəhrəman sevdiyi xanımla vidalaşaraq igid dostları ilə müharibəyə yollanır. Qüdrətli Azərbaycan Ordusu yenilməzlik nümayiş etdirərək davamlı zəfərlər qazanır və igid döyüşçü bayrağımızı Şuşa zirvəsində dalğalandırır, “Dəmir yumruğ”unu göyə qaldırır...

Balet tamaşasının xronometrajı 44 dəqiqədir. Bu da Vətən müharibəsinin davam etdiyi zamanı simvolizə edir.

# Böyük Qayıdışla bağlı portalın təqdimatı keçirilib

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" ilə bağlı boyukqayidish.gov.az portalı hazırlanıb. İyulun 12-də Nazirlər Kabinetində Dövlət Proqramının icrasının gedişinə həsr olunmuş iclasda portalın təqdimatı olub.



Nazirlər Kabinetinin Aparatının rəhbəri Rüfət Məmmədov ölkə başçısının 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə Dövlət Proqramı üzrə görülən və görüləcək işlər barədə danışıb. Bildirib ki, sərəncamla Nazirlər Kabinetinə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarətin və hesabatlılığın həyata keçirilməsi, eləcə də nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Prezidentinə məlumat verilməsi tapşırılıb. Həmçinin nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqinin və qiymətləndirilməsinin Nazirlər Kabinetinin sifarişi üzrə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən həyata keçirilməsi qeyd olunub. Proqramın icrası üçün Nazirlər Kabinetinin müvafiq sərəncamı qəbul edilib. Proqram çərçivəsində işlərin gedişinə nəzarətin səmərəli təmin olunması məqsədilə İİTKM-yə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına nəzarət və hesabatlılıq Portalı"nın formalaşdırılması tapşırılıb.

Sonra İİTKM-in icraçı direktoru Vüsal Qasımlı boyukqayidish.gov.az portalının təqdimatını edib. Bildirib ki, Dövlət Proqramında 6 prioritet üzrə 25 fəaliyyət istiqaməti müəyyən edilib və 188 tədbirin icrası nəzərdə tutulur. İİTKM-də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın monitorinq və qiymətləndirilməsinin aparılmasının təmin edilməsi məqsədi ilə "Metodoloji çərçivə" hazırlanıb.

"İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına nəzarət və hesabatlılıq Portalı"nın işləmə mexanizmlərinin izahı və tətbiqinə dair təlimlər keçirilib və video təlimat hazırlanıb. Hibrid formatda keçirilən təlimlərdə Dövlət Proqramının icrasında iştirak edən 44 dövlət qurumunun 200-ə yaxın səlahiyyətli nümayəndəsinə portaldan istifadə qaydaları, şərtləri və bölmələri haqqında ətraflı məlumat verilib. Aidiyyəti qurumlar tərəfindən müvafiq məlumatlar portalda yerləşdirilir. Bu məlumatlar əsasında İİTKM tərəfindən monitorinq və qiymətləndirmələr aparılaraq nəticələri Nazirlər Kabinetinə təqdim ediləcək.

# Daha 23 ailə Laçına köçüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən verilən xəbərə görə, iyulun 13-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 23 ailə (85 nəfər) köçürülüb.



Xatırladaq ki, Laçın sakinlərinin doğma yurda qayıdışı mayın 28-də başlayıb. Ötən müddətdə (son köçlə birlikdə) Laçın şəhərində ümumilikdə 93 ailənin (351 nəfər) daimi məskunlaşması təmin edilib.

# Müdrik lider, örnək şəxsiyyət






Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsində "Heydər Əliyev Türk dünyasının böyük oğludur" mövzusunda tədbir keçirilib. "Heydər Əliyev İli" ilə əlaqədar təşkil olunan tədbirdə kitabxananın əməkdaşları və fəal oxucular iştirak ediblər. Heydər Əliyevə həsr edilmiş şeirlər səslənib, videoçarx nümayiş etdirilib. Kitabxana əməkdaşları tərəfindən hazırlanmış "Türk dünyasının fenomen lideri" adlı sərgiyə baxış olub.

***

Ucar rayon Mərkəzi Kitabxanasının təşkilatçılığı, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Ucar rayon komitəsinin dəstəyi ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə şeir müsabiqəsi keçirilib. Qaliblərə fəxri fərman və hədiyyələr təqdim olunub.





***

Gəncə şəhərindəki İsrafil Məmmədovun Ev-Muzeyində "Ulu öndər Heydər Əliyevin mənalı həyatı, zəngin siyasi irsi hər birimizə örnəkdir" adlı tədbir təşkil olunub. Çıxışlarda Ümummilli liderin uğurlu siyasətindən, ölkəmizin tərəqqisi naminə göstərdiyi misilsiz xidmətlərdən, bugünkü inkişafımızın möhkəm təməllərini qoymasından danışılıb.

***

M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzində "Səni vəsf edirik, Ulu öndərim!" başlığı altında baxış-müsabiqənin yekun konserti keçirilib. Konsertin sonunda iştirakçılar Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Şəki rayon komitəsi tərəfindən fəxri fərmanlarla təltif olunublar.

Balakən rayon MKS-nin Qullar kənd kitabxana filialında şair, publisist Məstan Günərin (1935-2010) "Bir oğul göstərin Heydərə bənzər" adlı kitabının müzakirəsi keçirilib. İştirakçılar kitabda yer alan bir sıra şeirləri səsləndiriblər.

***

Salyan rayon MKS və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə çıxış edənlər Ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə gəlişi və müstəqil qüdrətli Azərbaycanın təməlini qoymasından söz açıblar. Heydər Əliyevin 1998-ci ildə Salyana etdiyi tarixi səfərlə bağlı videoçarx nümayiş olunub.

***

Ağstafa rayon Heydər Əliyev Mərkəzində "14 iyul 1969-cu il: müstəqil və qüdrətli Azərbaycan dövlətinin təməlinin qoyulduğu gün" mövzusunda tədbir keçirilib. Çıxışlarda qeyd olunub ki, 1969-cu ilin 14 iyulunun Azərbaycan tarixində xüsusi yeri var. Belə ki, Azərbaycan KP MK-nın iyul plenumunda Heydər Əliyev birinci katib seçilib. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illəri haqlı olaraq Azərbaycanın intibah dövrü adlandırmaq olar.

Tovuz rayon Heydər Əliyev Mərkəzi və rayon MKS-nin birgə təşkilatçılığı ilə "Heydər Əliyev irsi milli sərvətimizdir" mövzusunda dəyirmi masa təşkil edilib. Çıxışlarda vurğulanıb ki, Ulu öndər öz dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirib və xalqımızın taleyində silinməz izlər qoyub.

**Hazırladı: N.Məmmədli**

# Vətənin qəhrəmanları unudulmur






Vətən müharibəsi şəhidi Elşən Əhmədlinin doğum günündə məzarı ziyarət olunub. Qeyd edilib ki, Elşən Əhmədli 1997-ci il iyulun 11-də Oğuz şəhərində anadan olub. O, Vətən müharibəsi başlayan gündən döyüşüb.

Şuşa şəhərinin azad olunması uğrunda qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə yüksəlib. Oğuz şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Oğuz şəhərindəki küçələrdən birinə şəhidin adı verilib.

***

Gəncə şəhər MKS-nin 1 saylı kitabxana filialı Vətən müharibəsi şəhidi Elnur Abdullayevin doğum günü ilə əlaqədar "Arzuları yarımçıq qalan ömür" başlığı altında xatirə günü keçirib. Çıxış edənlər Elnur Abdullayevin həyat və döyüş yolundan söz açıblar.

Goranboy rayon Mədəniyyət Mərkəzinin Şəfəq Mədəniyyət evində şəhid leytenant Ömər Şirinovun xatirəsinə həsr edilmiş "Şəhidlər unudulmur" adlı tədbir təşkil edilib. Qeyd olunub ki, 2022-ci il sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədilib. Ömər Şirinov həmin təxribatın qarşısını alarkən şəhid olub. Sentyabrın 14-də Goranboy rayon Zeyvə kənd qəbiristanlığında torpağa tapşırılıb.

Goranboy rayon Mədəniyyət Mərkəzinin Qaraçinar kənd Mədəniyyət evində 2020-ci ilin Tovuz döyüşlərinə (12-16 iyul) həsr olunmuş "Vətən sərhəddən başlayır" adlı dəyirmi masa təşkil edilib. Tovuz döyüşləri zamanı şəhid olmuş Milli Qəhrəmanlar general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev haqqında məlumat verilib. Sonda məktəblilər vətənpərvərlik mövzusunda şeirlər səsləndiriblər.

***

Quba rayon MKS-nin Mərkəzi Kitabxanasında Vətən müharibəsi şəhidi, tibb xidməti leytenantı Turqut Xəlilbəylinin anım gününə həsr olunmuş tədbir keçirilib. "Vətən müharibəsinin ilk şəhid həkimi" adlı tədbirdə qeyd olunub ki, Turqut Xəlilbəyli 2020-ci il sentyabrın 27-də müharibə başlanan gündən Füzuli rayonu istiqamətində gedən döyüşlərə qatılıb, yaralı hərbçilərimizi döyüş zonasından çıxararaq xilas edib. Oktyabrın 7-də şəhidlik zirvəsinə ucalıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

# Şuşada poeziya bayramı



*əvvəli səh. 1-də*

Öz nəğməsinə əbədi həyat arzulamış Molla Pənah Vaqifin bu sözləri əsrləri aşaraq bizlərə çatmışdır. Bu gün biz tam əsasla deyə bilərik ki, böyük şairin arzusu həyata keçmişdir. Onun insan gözəlliyini, insan iradəsinin əzəmətini, xeyirə və ədalətə məhəbbəti, xalqlar arasında dostluğu və qardaşlığı tərənnüm edən gözəl rübabı adamlara gərəkdir, deməli, ölməzdir. Şairin özü kimi ölməzdir. Xalq ilə yaşayanlara ölüm yoxdur! Vaqif şeirlərinin əbədiliyi, solmazlığı, xalqın öz şairinə məhəbbəti yenidən parlaq şəkildə təsdiq edilmişdir. İlhamlı şairin qırx ildən çox yaşayıb-yaratdığı qədim Şuşada Vaqif poeziyası günləri – Azərbaycanda ənənəyə çevriləcək poeziya festivalı keçirilmişdir.

Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın Birinci katibi H.Ə.Əliyev, Azərbaycan KP MK bürosunun üzvləri, respublikanın mədəniyyət və elm xadimlərinin böyük bir qrupu poeziya bayramına gəlmişdilər.

Xalq içərisində Şuşanı haqlı olaraq musiqinin və poeziyanın beşiyi sayırlar. Şuşalıları mahnısız, nəğməsiz təsəvvür etmək çətindir. S.Yesenin azərbaycanlı dostlarının söylədikləri xalq nağılına istinad edərək, məktublarından birində yazmışdı: "Əgər sən mahnı oxumursansa, deməli, şuşalı deyilsən". Bu dağlar diyarının mahnılarının şöhrətini sanki təsdiq edərək Şuşa üzərində Vaqifin məşhur "Durnalar" qoşması, xalq mahnısı "Qarabağ şikəstəsi" ətrafa yayıldı. Minlərlə adam müğənnilərin, orkestrlərin səsinə səs verdi. Sanki həmin gün bütün Şuşa, şəhərin qonaqları Vaqifin görüşünə gəlmişdilər. Küçələr, ətrafdakı yaşıl təpələr adamla dolu idi. Şairin hər birimiz üçün əziz olan adı yazılmış məqbərəyə gedən yolboyu adamlar canlı dəhliz yaratmışdı.

Lap bu yaxınlarda, ilin əvvəlində Vaqifin adı ilə əbədi bağlı olan Qarabağ torpağında bu əzəmətli xatirə kompleksinin təntənəli açılışı olmuşdu. Bu kompleks şairin ölməzliyinin və şöhrətinin sübutudur. O zaman, qarlı yanvar günlərində yollar və çığırlar buz bağlamışdı, ətrafda hər şey ağ don geymişdi. İndi isə səma mavidir, ətraf mənzərə Vaqifin özünün şeirləri kimi əlvan boyalarla zəngindir.

Məqbərəyə doğru uzanıb gedən qranit pillələr tribunanı əvəz etdi. Poeziya festivalını Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin birinci katibi İsmayıl Şıxlı açdı.

O dedi: Vaqifin vətəni şairin söz və saz diyarı, şairanə dastanlar və laylalar beşiyi olan Qazaxın Salahlı kəndidir. Xalq poeziyasının bütün gözəlliyini şair məhz orada duymuş, onun həyatverici çeşməsindən orada su içmişdir. Lakin onun istedadı uzun illər ömür sürdüyü Şuşada, Qarabağın bu incisində həqiqətən bərkimiş, pərvazlanmışdır.

Vaqif yaradıcılığı solmazdır, unudulmazdır. Axı klassik şeirimizdə Azərbaycan ədəbi dilində əsl inqilab məhz onunla başlanır. Canlı xalq dilini poeziyaya ilk dəfə o gətirmiş, bu dilin bütün rəngarəngliyindən, oynaqlığından və gözəlliyindən məharətlə o istifadə etmişdir. Xalqla ona aydın və yaxın olan dildə ilk dəfə Vaqif şeiri danışmışdır.

Şuşa xanının sarayında yaşasa da, Vaqif xalqa yaxın olmuşdur. Şair xalqın ehtiyaclarına, qüssəsinə və kədərinə bələd idi, onun dərdinə ürəkdən yanırdı və şairin bir çox mahnılarını doğuran da məhz bu yanğı idi.

Vaqif Azərbaycan tarixinə görkəmli dövlət xadimi kimi də daxil olmuşdur. O, Qarabağ xanlığının vəziri olarkən Rusiya ilə yaxınlaşmaq üçün çox işlər görmüşdür. O, xalqı tərəqqiyə, maarifə çatdırmağın, doğma torpağı yadelli işğalçıların daimi hədələrindən xilas etməyin yeganə yolunu müdrikcəsinə bu yaxınlıqda görurdü.

Azərbaycan yazıçıları, respublikanın bütün bədii ziyalıları adından İ.Şıxlı xalqın yaradıcı irsinin əbədiləşdirilməsinə daim qayğı və diqqət yetirilməsi üçün, bunun parlaq sübutu olan Vaqif poeziyasının indiki bayramı üçün Azərbaycan KP MK-ya və Azərbaycan SSR hökumətinə dərin minnətdarlığını bildirdi.

Alovlu vətənpərvər, doğma diyarının atəşin nəğməkarı olan Vaqif həm də beynəlmiləlçi şair idi. Zülmətli, lakin fanatizm illərində qanlı daxili qırğınlar zamanı o, həmişə xalqlar dostluğunun carçısı kimi çıxış edirdi. Əlamətdar haldır ki, Vaqifin adı ilə nurlanan poeziya bayramında da şeirlər üç dildə – Azərbaycan, rus və erməni dilində səslənirdi.

Qasım Qasımzadə, bayrama toplaşanlara Hüseyn Çavid diyarından salam yetirən Naxşıvan şairəsi Kəmalə Ağayeva, Vladimir Abramyan, Vladimir Qafarov, Hüseyn Arif, Qurgen Qabrielyan, Eyvaz Borçalı böyük şairin əsərlərinin tərcümələrini və ona ithaf olunmuş şeirləri Vaqifə poeziya çələngi kimi təqdim etdilər. Böyük həyat aşiqi olan Vaqif bütün varlığını doğma xalqına həsr etmişdi. O, dərin inam və ümid hissilə yazırdı ki, zülmətli günlərin axırına az qalıb. Onun torpağının işıqlı yeni həyatı, yaradıcı, qurucu, öz taleyinin sahibi olan xalqın gözəl günləri şairə ən yaxşı abidə olmuşdur.

Vaqif poeziyasının vətəndaşlıq ənənəsinin layiqli varisi olan festival iştirakçıları Nəriman Həsənzadə, Sokrat Xanyan, Abbas Abdulla, Tofiq Bayram, Sabir Rüstəmxanlı, Hüseyn Razi, İskəndər Coşqun, Ənvər Əhməd, Hüseyn Hatəmi, Nüsrət Kəsəmənli şeirlərini oxudular.

Qədim zamanlardan Azərbaycanda şeir məclislərində xalq tərəfindən sevilən deyişmələr keçirilirdi. Bu gözəl ənənəyə Vaqif və Vidadi də sadiq qalmışlar. Onların məşhur deyişməsi festivalda gənc şairlər Eldar Nəsibin və Vaqif Cəbrayılzadənin ifasında səsləndi.

İki yüz ildən çoxdur ki, şeir səmasında Vaqifin ağqanadlı "Durnalar"ı pərvaz edir və onun yaradıcılığına pərəstiş edənlərin yeni-yeni nəsilləri ilhamdan doğan bu qoşmanın lirizminə heyran qalırlar, şairlər isə öz böyük sələfinin qələmə aldığı mövzuda şeir qoşaraq öz ustalığını cilalayırlar. İndi də Mixail Petrakovun və Söhrab Tahirin təxəyyülündən doğan durnalar qanad çalıb şeir səmasına şütüyərək sanki Vaqifin durna qatarına qoşulur.

Azərbaycan poeziyasının yorulmaz təbliğatçısı, erməni şairi Samvel Qriqoryanı Azərbaycan poeziyasının ağsaqqalı Süleymam Rüstəmlə qırılmaz tellərlə bağlayır. S.Qriqoryan bu ədəbi birliyi nümayiş etdirərək qələm qardaşına ithaf etdiyi şeirini oxudu.

Şair istedadı üçün əsl meyar, onun poeziyasının gücu və dəyəri həmişə bu poeziyanın xalqa nə qədər gərəkli olması, xalqa necə sədaqətlə xidmət etməsi ilə olçülmüşdür. Buna görə də təsadüfi deyildi ki, söz ustalarının bu yaradıcılıq hesabatını yekunlaşdıran SSRİ Dövlət mükafatı laureatı Nəbi Xəzri əməkçilər dəstəsində şairin yeri, poeziyanın yüksək amalı – zəmanəmizin pafosunu, qəhrəmanlıq nümunələrini tərənnüm etmək, həmişə xalqla olmaq amalı haqqında şeir oxudu.

Vaqif öz adını-məlumatlı, gözüaçıq adam adını bütün həyatı ilə doğrultmuşdur. Lakin qüdrətli təxəyyül qabiliyyətinə malik olan şair hətta ən dərin xəyal aləminə qapıldığı anlarda da təsəvvürünə gətirə bilməzdi ki, vaxt gələcək, belə bir bayramın qəhrəmanı olacaq, Azərbaycanın bir çox guşələrindən buraya, onunla bağlı olan yerlərə qonaqlar axışıb gələcəklər. Xalq oyunları və xalq gəzintiləri meydanı olan, şairi xatırladan Cıdır düzündə adam əlindən tərpənmək mümkün deyildi. Qaş qaralırdı. Zirvəsi meşəli Topxana dağını duman bürüyür, uzaqda başı qarlı Kirs dağı ucalır və adama elə gəlirdi ki, səhnədə nəhəng portreti qoyulmuş Vaqif bir vaxtlar olduğu kimi, yenə də buraları, bu yerləri seyrə çıxmışdır.

Səhnələşdirilmiş tamaşada böyük şairin obrazı canlandı. Festivalın layiqli akkordu olan bu tamaşada Səməd Vurğunun M.Əzizbəyov adına Akademik teatrın səhnəsində qoyulmuş "Vaqif" dramından parçalar göstərildi, poeziya dühasının şeirlərinə bəstələnmiş mahnılar, Azərbaycan bəstəkarlarının əsərləri, xalq melodiyaları səsləndi. Bunları SSRİ Xalq artistləri Zeynəb Xanlarova, Lütfiyar İmanov, respublikanın Əməkdar artistləri Zöhrab Adıgözəlzadə, Sərvər Qəniyev, Amaliya Pənahova, Arif Babayev, Azərbaycan SSR Dövlət mükafatı laureatı Əliabbas Qədirov, artistlərdən Firəngiz Mütəllimova, Firuzə İbadova, Teymur Mustafayev, Avtandil İsrafilov, Qəndab Quliyeva, aşıq Ədalət Nəsibov, respublikanın əməkdar incəsənət xadimi Ağası Məşədibəyovun rəhbərliyi altında "Azərbaycan təranələri" Xalq çalğı alətləri ansamblı, Şuşa rayon Mədəniyyət evinin "Muğam" ansamblı ifa etdilər.

Bundan sonra Azərbaycanın mədəni həyatında layiqli yer tutacaq Vaqif poeziyasının bu bayramının bədii epiloqu parlaq və təsirli idi.

**Azərinform**
**"Kommunist" qəzeti (3.8.1982)**

# Musiqili Teatr "Sən elə bir zirvəsən!" adlı səhnə əsərini Şəkidə nümayiş etdirib

Azərbaycan Dövlət Akademik Musiqili Teatrı Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə hazırladığı "Sən elə bir zirvəsən!" adlı musiqili-tarixi esseni Mədəniyyət Nazirliyinin dəstəyi ilə Şəkidə nümayiş etdirib.



Teatrın solistləri Əməkdar artistlər Fərid Əliyev, Səidə Şərifəliyeva, Prezident mükafatçıları Mehriban Zaliyeva, Səmədzadə Xasiyev, aktyorlar Aydan Həsənova, Hidayət Əliyev, Şaban Cəfərov, Türkel Tariqpeyma, Emin Zeynallının, həmçinin teatrın xor və balet heyəti üzvlərinin iştirak etdiyi səhnə əsəri böyük maraqla qarşılanıb.

Tamaşadan sonra Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov çıxış edərək yaradıcı kollektivə minnətdarlığını bildirib, teatrın direktoru Əməkdar incəsənət xadimi Əliqismət Lalayevə təşəkkürnamə təqdim edib.

Musiqili-tarixi essenin ssenari müəllifi Əməkdar artist Mübariz Həmidov, quruluşçu rejissoru Cavid İmamverdiyev, quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, xormeysteri Əməkdar artist Vaqif Məstanov, baletmeysteri Əməkdar artist Emin Əliyev, rejissor assistenti Afər Tağıyevadır.

Xatırladaq ki, Musiqili Teatrın yaradıcı heyəti bu tamaşa ilə Gəncə şəhərində də qastrolda olub.

## Görkəmli heykəltaraş, Xalq rəssamı Fazil Nəcəfov dünyasını dəyişib

Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Görkəmli heykəltaraş, Xalq rəssamı, Prezident təqaüdçüsü Fazil Nəcəfov 12 iyul 2023-cü ildə, ömrünün 88-ci ilində vəfat edib.



Fazil İmamverdi oğlu Nəcəfov 16 fevral 1935-ci ildə Bakıda anadan olub. 1955-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirib. Sonra V.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutunda təhsilini davam etdirib.

Onun 60-cı illərin əvvəllərində başlayan yaradıcılığı bir sıra maraqlı əsərlərlə, o cümlədən "İzahat" və "Neftçi" heykəltaraşlıq kompozisiyaları ilə yadda qalıb. Azərbaycan heykəltaraşlığında avanqardizmin banisi hesab edilən sənətkarın "Qara ay", "Korlar", "Mələk", "Ömrün mərhələləri", "Söhbət", "İstirahət edən qoca", "Min yaşlı kişi", "Dua", "Əkizlər", "Fəvvarə" və digər əsərləri maraqla qarşılanıb.

Heykəltaraşın sonuncu monumental işlərindən biri 2014-cü ildə tamamladığı dahi bəstəkar Qara Qarayevin məzarüstü abidəsidir. Sənətkarın əsərləri bu gün əsasən Bakıdakı Müasir İncəsənət Muzeyinin kolleksiyasında yer alır.

Yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilən Fazil Nəcəfov "Xalq rəssamı" (2002) fəxri adına, Prezident təqaüdünə (2004), "Şöhrət" (2020) ordeninə layiq görülüb. Sənətkarın həyat və yaradıcılığı haqqında "Göyə baxan daşlar" (2019) sənədli filmi çəkilib.

Fazil Nəcəfov iyulun 12-də Xəzər rayonunun Buzovna qəsəbə qəbiristanlığında torpağa tapşırılıb. Dəfn mərasimində Mədəniyyət Nazirliyinin nümayəndələri, sənət dostları, ailə üzvləri və yaxınları iştirak ediblər.

***



2015-ci ildə, 80 illik yubileyində qəzetimizə müsahibəsində ömrün kərpic-kərpic töküldüyünü deyən Fazil Nəcəfov sənət sahibinin hərtərəfli biliyə malik olmasının vacibliyini vurğulamışdı: "...Buna görə də uşaqlara deyirəm ki, çox oxuyun, çox öyrənin. Əzim Əzimzadə rəssamlıq məktəbi hər zaman güclü olub. O dövrdə biz Moskvada imtahan verəndə hamı Bakı məktəbinə rəqib kimi baxırdı".

O, sənətə ciddi yanaşmağı tövsiyə edirdi: "Dünənin sənətini görmək asandır. Amma bu gün sənəti elə asanlaşdırıblar ki, o sənətdən gələcəyə nə qalacaq, tarix nəyi yaşadacaq bunu zaman göstərəcək. İstərdim ki, sənətə qeyri-ciddi yanaşmasınlar. Konseptual sənət başqadır. Sənətdə tutduğun mövqeyin səbəbini yeni nəsillərə anlatmalısan".

Bəli, Fazil Nəcəfov məhz gələcəyin sənətini yaratdı. Bütün dövrlərdə xatırlanacaq sənət əsərləri...

Allah rəhmət eləsin.



## Sumqayıtda teatr mövsümünə "Xəzinə" ilə yekun vurulacaq

Sumqayıt Dövlət Dram Teatrının 54-cü mövsümünü iyulun 16-da Hafiz Ataxanlının "Xəzinə" pritçası əsasında hazırlanan tamaşa ilə başa vuracaq.

Qeyd edək ki, əsər "Nizami Gəncəvi İli" (2021) çərçivəsində Mədəniyyət Nazirliyinin sifarişi ilə yazılıb. Xalq artisti, teatrın baş rejissoru Firudin Məhərrəmovun quruluş verdiyi tamaşa özündə dahi Nizami Gəncəvinin ideyalarını ehtiva edir.

Zəka ilə sərvətin, daş-qaşın mübarizəsi tamaşa boyu diqqət mərkəzinə çəkilir. Beş poemanın əsas obrazlarının cəm olduğu pritçada insan və onun kamilliyi, zəkanın qüdrəti kimi mesajlar verilir.

Tamaşanın quruluşçu rəssamı Elşən Sərxanoğlu, icraçı rəssamı Nizami Dadaşev, musiqi tərtibatçısı Telman Qəniyevdir. Rolları Əməkdar artist Cəlal Məmmədov, aktyorlar Oktay Mehdiyev, Akif Mirzəyev, Siyavuş Mahmudov, Vəfa Qurbanova, İlahə Səfərova, Habil Xanlarov, Yalçın Səlimov, Aynur Hümbətova, Məryəm Hüseynli, Şəmistan Süleymanlı, Ümid Abbas, Kamran Muradlı və Ramazan Xanlarov ifa edirlər.

## Qarabağ həqiqətləri haqqında film çəkilir



Xalq yazıçısı Gülhüseyn Hüseynoğlunun (1923-2013) hekayəsi əsasında "Ana" adlı qısametrajlı film çəkilir.

Qarabağ həqiqətlərindən bəhs edən filmin ssenari müəllifi İlqar Fəhmi, quruluşçu rejissoru Vüsal Məmmədov, rejissoru Vüsalə Tağı, operatoru Mehdi Yaqubovdur.

Rolları Bakı Bələdiyyə Teatrının aparıcı aktyoru İlqar Musayev, həmçinin Firəngiz Babayeva, Gülər Nəbiyeva və Mirhüseyn Yaqubov canlandırır.

Kənddə yaşayan iki dost müharibəyə gedir. Onlardan biri şəhid olur və son nəfəsində dostundan ölümünün anasından gizlədilməsini xahiş edir. Ancaq sonda sağ qalan dost baş verən hadisəni təsirli formada şəhidin anasına hiss etdirir. Şəhid anası məğrur duruşunu itirmir, öz hisslərinə hakim olur və şəhidliyin uca bir zirvə olduğunu qəbul edir...

Filmin çəkilişləri Xızı rayonunun Altıağac ərazisində aparılır.

## Gəncə kuklaçıları üçün məhsuldar mövsüm

Gəncə Dövlət Kukla Teatrı başa çatan 37-ci mövsümdə tamaşaçılarına maraqlı səhnə nümunələri təqdim edib.



27-30 may tarixlərində Türkiyənin Konya şəhərində keçirilən 15-ci "Min nəfəs-bir səs" Türkdilli Teatrların Beynəlxalq Teatr Festivalına qatılan yaradıcı heyət Rəsul Rzanın "Ana qaz" əsəri (rejissor Ş.Məmmədli) əsasında hazırlanan tamaşaya görə festivalın təşkilat komitəsinin təşəkkürnaməsi və kuboku ilə mükafatlandırılıb.

Kollektiv 13-17 iyun tarixlərində Ümummilli lider Heydər Əliyevin 100 və Azərbaycan peşəkar milli teatrının 150 illiyi ilə əlaqədar Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Dövlət Kukla Teatrının təşkilatçılığı ilə keçirilən ilk "Kukla teatrları həftəsi"ndə də eyni tamaşa ilə çıxış ediblər.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə reallaşan teatrların qastrol aksiyası çərçivəsində Gəncə kuklaçıları iyulun 5-də Mingəçevir Dövlət Dram Teatrında Əhməd Orucoğlunun "Zınqırovlu pişik" (rejissor Ş.Məmmədli) tamaşasını göstərib.

Mövsüm ərzində illik plana uyğun olaraq, kollektiv H.Ataxanlının "Dərdlərimin çamadanı" (F.Paşayev) və A.Əlizadənin "Balqabağın yuxusu" (Ş.Məmmədli) tamaşalarını təhvil verib. Kuklaçılar hazırda "Milçək vızıltısı" (Z.Əliyeva) və "Qırmızıpapaq" (F.Paşayev) tamaşaları üzərində məşqləri davam etdirir.

## Salyanda Kaloğlan balacalarla payızadək vidalaşıb

Salyan Dövlət Kukla Teatrı 29-cu mövsümünü iyulun 12-də "Kaloğlanın sərgüzəştləri" nağıl-tamaşası ilə başa vurub.



Dəcəl, xüsusən də kitab və əşyalarına qarşı diqqətsiz olan Kaloğlanın ən sevimli işi məktəbdə kitablarını cırmaq, evdəki əşyaları dağıtmaqdır. Heç nəyə marağı olmayan balaca qəhrəman nəinki mütaliəni sevmir, heç nağıllara da inanmır. İşi-gücü kompüter oyunlarıdır. Günlərin birində oyun oynayarkən onu yuxu tutur. Nağıl qəhrəmanları onun yuxusuna gəlir... Ayılanda isə bütün əməllərindən peşman olaraq kitablara və ətrafına qarşı diqqətli olacağına söz verir.

Tamaşanın səhnələşdirəni Ağaddin Babayev, quruluş müəllifi Rafiq Mirzə, quruluşçu rəssamı Ceyhun Rüstəmbəyli, musiqi tərtibatçısı Elvin İsayevdir. Səhnə işində rolları Röyal Qurbanov, Elşən İsmayıl, Nahid Rüstəmbəyli, Nərmin Hüseynli, Xuraman Qədirova, Böyükağa Mehdizadə canlandırırlar.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (47)

### 1994-cü il 3 iyul

Prezident Heydər Əliyev Bakı metrosunda törədilmiş terror aktı ilə əlaqədar hadisə yerində olub, 5 nömrəli şəhər klinik xəstəxanasında yaralılara baş çəkib.

### 1994-cü il 2 avqust

Heydər Əliyev Prezident Sarayında respublikanın ali və orta ixtisas məktəblərinə qəbulla əlaqədar müşavirə keçirib.

### 1994-cü il 18 sentyabr

Heydər Əliyev maestro Niyazinin Ev-Muzeyinin təntənəli açılış mərasimində çıxış edib.

*"Bu gün respublikamızın həyatında əlamətdar gündür. Azərbaycan professional musiqisinin banisi, dahi bəstəkarımız Üzeyir Hacıbəyovun anadan olduğu gündür. Bu gün Üzeyir bəyin silahdaşı, professional musiqimizin yaranmasında və inkişaf etməsində ömrü boyu onunla birlikdə əvəzsiz xidmətlər göstərmiş böyük bəstəkar Müslüm Maqomayevin də anadan olduğu gündür.*

*On illərdir ki, sentyabrın 18-i Azərbaycanda musiqi bayramı elan olunubdur. Həm də çox sevindirici haldır ki, həyatımızın bu keşməkeşlərinə, çətinliyinə, ağırlığına baxmayaraq, mədəniyyətimiz yaşayır, mədəni irsimizə hörmət və ehtiram yaşayır. Əsla təsadüfi deyildir ki, məhz bu gün – Azərbaycanın təqviminə həkk olunmuş musiqi bayramı günü böyük bəstəkar, dahi dirijor Niyazinin ev-muzeyi açılır.*

*Niyazi respublikamızda da, keçmiş Sovet İttifaqında da, dünyanın ən böyük ölkələrində də tanınan, sayılan, hörmət qazanmış bir sənət ustasıdır. Niyazinin ən böyük xidməti bundan ibarətdir ki, o, həm bəstəkar kimi milli musiqimizi zənginləşdirmiş, Azərbaycanın mədəniyyətinə, milli musiqimizə böyük töhfələr vermiş və eyni zamanda, Üzeyir Hacıbəyovdan başlayaraq gənc bəstəkarlaradək Azərbaycanın ən görkəmli bəstəkarlarının yaratdıqları əsərlərin meydana çıxması, xalqa çatdırılması, səhnələrdə tamaşaya qoyulması üçün misilsiz işlər görmüşdür.*

*O, Azərbaycan professional musiqisinin yaranmasında və inkişafında böyük səylər göstərmiş və bu xidmətləri xalqımız heç vaxt unutmayacaqdır... Bizim başa düşdüyümüz mənada professional musiqi Avropada meydana gəlmişdir. Lakin Azərbaycan dirijoru və bəstəkarı Niyazi Avropanın mərkəzində dünya şöhrətli professional musiqiçilər qarşısında heyrətamiz səviyyədə dirijorluq etdi... Türkiyədə opera əsərlərinin, o cümlədən də Avropa, Rusiya bəstəkarlarının klassik əsərlərinin səhnə təcəssümünün əsasını Niyazi qoymuşdur. O vaxtlar, yəni Türkiyə ilə heç bir əlaqəmiz olmadığı dövrdə bunları Niyazi etmişdir. Böyük türk bəstəkarı Adnan Sayqunun "Koroğlu" operasını da məhz Niyazi səhnəyə qoymuşdur.*

*... Azərbaycanda mədəniyyət və elm xadimlərimizə həsr olunmuş ev-muzeylərinin yaradılmasına 70-ci illərdə başlanmışdır. Böyük bəstəkarımız, Azərbaycan xalqının fəxri və tacı olan Üzeyir Hacıbəyov 1949-cu ildə vəfat etmişdir. Amma onun həyat yolunu və yaradıcılığını əks etdirən muzey 74-cü ilədək yaradılmamışdı. Bu muzeyin yaradılmasına təşəbbüs göstərdiyim üçün özümü xoşbəxt hesab edirəm. Bununla da biz Azərbaycan xalqının həyatında gözəl bir ənənənin bünövrəsini qoyduq. Ondan sonra bir neçə ev-muzeyi yaradıldı. Böyük şairimiz Səməd Vurğunun, görkəmli dramaturqumuz, yazıçımız və şairimiz Cəfər Cabbarlının, böyük sənətkarımız, müğənnimiz, Azərbaycan operasının yaranmasında və inkişafında əvəzsiz xidmətləri olan Bülbülün ev-muzeyləri açıldı. Nəhayət, biz Cəlil Məmmədquluzadənin ev-muzeyinin yaradılması haqqında qərar qəbul etdik.... Yadımdadır ki, biz 1980-ci ildə qərar qəbul etmişdik. Budur, aradan 14 il keçmişdir, amma ev-muzeyi bu vaxtadək yaradılmamışdır. Demək istəyirəm ki, biz nə qədər çətinlik içərisində yaşasaq da, mədəniyyətimiz gərək həmişə yüksək səviyyədə olsun. Öz mədəni irsini qoruyub saxlaya bilməyən xalq nəyə qadir olduğunu heç vaxt sübut edə bilməz. O muzeylər yaradıldı, mən əminəm ki, Cəlil Məmmədquluzadənin də, Qara Qarayevin də, Fikrət Əmirovun da, başqa mədəniyyət xadimlərimizin də ev-muzeyləri yaradılacaqdır...*

*Bu muzeyin mənası, əhəmiyyəti sadəcə olaraq Niyazinin həyat yolunu və yaradıcılığını təbliğ etməkdən ibarət deyildir. Azərbaycan xalqının tarixini təbliğ və əks etdirməkdən, mədəniyyətimizin səviyyəsini göstərməkdən ibarətdir...".*

### 1994-cü il 25-30 sentyabr

Prezident Heydər Əliyev BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-yə səfər edib. Sentyabrın 29-da BMT Baş Məclisinin 49-cu sessiyasında çıxış edib. Səfər çərçivəsində Nyu-Yorkdakı "Türk evi"ndə Amerikada yaşayan türk və azərbaycanlı icmasının nümayəndələri ilə görüş keçirib, məşhur bakılı neft sahibkarı Şəmsi Əsədullayevin Amerikada yaşayan nəvəsi Züleyxa xanım Veber-Əsədullayeva ilə görüşüb.

### 1994-cü il 4 oktyabr

Heydər Əliyev respublikada dövlət çevrilişi cəhdi nəticəsində yaranmış vəziyyətlə əlaqədar televiziya və radio vasitəsilə Azərbaycan xalqına müraciət edib. Oktyabrın 5-nə keçən gecə Prezident Sarayı qarşısında toplaşmış Azərbaycan vətəndaşlarının mitinqində çıxış edib.

### 1994-cü il 5 oktyabr

Prezident Heydər Əliyev "Azadlıq" meydanında keçirilən ümumrespublika həmrəylik mitinqində çıxış edib.

### 1994-cü il 17 oktyabr

Prezident Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin bərpasının (18 oktyabr) 3-cü ildönümü münasibətilə təntənəli yığıncaqda çıxış edib.

### 1994-cü il 18-19 oktyabr

Heydər Əliyev İstanbulda Türk dövlətləri başçılarının ikinci zirvə toplantısında iştirak edib.

**Hazırladı: Vüqar Orxan**

***(davamı var)***

№52 (2021)
14 iyul 2023
www.medeniyyet.az

# Tarix Muzeyinin ekspozisiyası yenidən qurulur

## Tərtibat işləri yeni konsepsiyaya uyğun aparılır



Milli Azərbaycan Tarixi Muzeyində mühafizə olunan zəngin kolleksiyanın ictimaiyyətə daha yaxşı təqdim edilməsi məqsədilə yeni ekspozisiya qurulur. Aparılan tərtibat işləri barədə məlumat almaq üçün muzeyi ziyarət etdik.

Xronologiyaya əməl edilməklə qurulan ekspozisiya ilə tanışlıq zamanı muzeyin Arxeologiya elmi fond şöbəsinin müdiri tarix üzrə fəlsəfə doktoru, dosent Nasir Quluzadə bizə bələdçilik etdi, yeniliklər barədə məlumat verdi.

Muzeyin birinci mərtəbəsində yerləşən ekspozisiya zalında ardıcıllıqla Daş, Paleolit, Neolit, Eneolit, Tunc və Dəmir dövrlərinə aid eksponatlar (çaxmaqdaşı və dəvəgözü, əmək alətləri, gil qablar, tunc qılınc və xəncərlər, qadın bəzək əşyaları və s.) müvafiq bölmələr üzrə yerləşdirilib.

Biz də xronologiyaya uyğun olaraq, tanışlığa Daş dövrü bölməsindən başlayırıq. Nasir müəllim bildirir ki, eksponatlar yerləşdirilməzdən əvvəl tematik plan hazırlanaraq təkliflər verilib. Təkliflər ondan ibarət idi ki, müasir dövrdə Azərbaycan tarixində qəbul olunmuş konsepsiya və əsas ümumi müddəalar nəzərə alınsın. Bu gün bizim üçün Qarabağın maddi mədəniyyəti, dövlətçilik tariximiz və s. təbliği prioritetdir. Arxeoloji materialların nümayişində də bu iki əsas məqamı nəzərdə saxlamışıq. Ekspozisiyada Azıx mağarasından tapılan materiallar və Azıx adamının alt çənə sümüyü diqqət çəkir. Çənənin əsli xüsusi fondda qorunsa da, ikinci nüsxəni ziyarətçilər burada görə biləcəklər. Xüsusi fondda qorunan çənə tədqiqatçı alimlərə lazım olduğunda açıla bilər.

Ekspozisiyada nümayiş olunan Azıx və Tağlar mağaralarından tapılan nümunələrin isə tam orijinalı ilə tanış olmaq mümkündür.

Alim deyir ki, tamaşaçılar burada Qazax və Naxçıvan ərazisinə məxsus eksponatlarla da rastlaşa biləcəklər. Bütün eksponatlar Daş dövrünün təsərrüfat və məişətini, memarlıq və əlaqələrini, ideoloji təsəvvürlərini göstərir. Onların sırasında kəllə sümüyü xüsusilə diqqəti çəkir. Dəlik açılmış kəllə unikal nümunədir. V minilliyə aid olan nümunə Azərbaycan ərazisində 1984-cü ildə mərhum arxeoloq İdeal Nərimanov tərəfindən aşkarlanıb. Sümükdəki dəlik məqsədyönlü şəkildə açılıb. Ümumiyyətlə, tapılan kəllələrdə dəlik zərbədən və digər səbəblərdən olar bilər. Bu sümükdə olan dəliyin daş alət, cızma və eşmə üsullarla açıldığını görmək mümkündür.

Ekspozisiyada müxtəlif mədəniyyətlərə aid küplərə rast gəlirik. Bu bölmə üçün 1557 eksponat seçilib və bunlardan 1469-u sərgilənir, yəni nümayiş üçün hazırdır. Burada eksponatların vitrin annotasiyalarının hazırlandığını gördük.

Qeyd edək ki, yeni ekspozisiya muzeyin əməkdaşları tərəfindən hazırlanıb. Vitrinlər hazırlanarkən yerli mütəxəssislərin təklif və tövsiyələri də nəzərə alınıb. Bu məqamda eksponatların yeri, dizaynı məsələsi də əhəmiyyət kəsb edir. Dövr, məkan funksionallıq baxımından bir-biri ilə uzlaşmalıdır.

İndi isə Tunc dövrü bölməsindəyik. Buradakı eksponatların hər biri sanki öz nağılını danışır. Çox böyük bir küp diqqətimizi çəkir. Öyrənirik ki, vaxtilə bu küpdən yerə basdırılmış vəziyyətdə taxıl məhsullarının saxlanılması üçün istifadə olunub.



Erkən Dəmir dövrünü sərgiləyən bölmədə daş məmulatları metal əvəzləyir. Antik və Orta əsrlər dövrü zalında Azərbaycan ərazilərində mövcud olmuş Albaniya və Atropatena dövlətlərinin numizmatika nümunələri, hərbi ləvazimatlar, küp qəbirlər diqqəti cəlb edir. Gəlmə və yerli mədəniyyətə aid eksponatlar həmin dövrün miqrasiyasını, mövcud olmuş beynəlxalq əlaqələri əks etdirir.

Bələdçimiz deyir ki, sərgilənəcək taxta qutu qəbirlər bizim eranın I əsrindən VII əsrinə qədər Mingəçevir ərazisində daha çox geniş yayılıb. Bu eksponatı orijinal görmək, məncə, hər bir ziyarətçi üçün maraqlı olacaq. Həmin dövrün insanlarının dini görüşlərini, dəfn adətlərini təsəvvür etməyə imkan verir. Biz o dövrün 8 dəfn növünün dördünə (taxta, təknə, katakomba və küp) sərgidə rast gəlirik.





Ekspozisiyada zinət əşyaları, Süleyman daşı (qranat) və əqiq qaşlı qızıl və gümüş bəzək əşyaları da ən dəyərli nümunələrdəndir. Ərəb xilafəti dövrünü əhatə edən eksponatlar da diqqəti cəlb edir.

Səlcuqlular dövrünün keramika mədəniyyətinə nəzər salırıq. Ekspozisiyada dövrün görkəmli hökmdar və sərkərdələrinin portretlərinə də rast gəlirik. Onu da qeyd edim ki, sərgilənən nümunələrin hər biri oxunub, mahiyyəti və dövrü müəyyən olunub. Nasir müəllim bəzisinin üzərində dua, bəzisinin mənzum şeir, bəzisinin də isə hətta cadu yazılan qab olduğunu da deyir. Monqol qəbrindən tapılan xalat da maraqlıdır. Vaxtilə Monqolustana gəlmiş muzey əməkdaşları bu eksponatın mulyajını öz ölkələrinə aparıblar. Ekspozisiyada hər bir eksponat unikallığı ilə seçilir.

Orta əsrlərə qədər gəlib çıxan ekspozisiya Azərbaycan tarixinin Xanlıqlar dövrü ilə bitir.

Diqqətimi daha bir guşə – "Batmış şəhərlər" çəkir. Bələdçimiz deyir ki, bu hissədə 1968-1986-cı illərdə muzeyin tərkibində təşkil edilən sualtı arxeoloji ekspedisiyanın (bura muzeyin əməkdaşları və başqa qurumlardan mütəxəssislər daxil idi) 20 il ərzində Xəzər akvatoriyasında apardığı axtarışlar zamanı aşkar edilən nümunələr təqdim olunur.

***

Qeyd edək ki, muzeyin yeni ekspozisiyası 2 mərtəbədən ibarət olacaq. Ekspozisiyada materiallar arxeologiya, etnoqrafiya, elm, mədəniyyət, Cümhuriyyət dövrü, Heydər Əliyevin hakimiyyət illəri, 44 günlük Vətən müharibəsi bölmələri üzrə yerləşdiriləcək.

Ekspozisiyanın qurulması prosesində muzeyin rəhbərliyi və bir sıra əməkdaşları tərəfindən işıq və rəng amili, müasir texniki avadanlıqlardan istifadə qaydaları və xüsusi olaraq eksponatların təqdimatının estetik prinsipləri ilə bağlı müzakirələr aparılır, muzey işi sahəsində mövcud meyarlar tələb olunur.

Muzeydə olduğumuz zaman Sovet dövrünü əhatə edən Azərbaycan incəsənəti, təhsil və elm, mətbuat və ədəbiyyat vitrinlərinə aidiyyəti üzrə eksponatlar yerləşdirilirdi.

Digər ekspozisiya zalı isə XIX əsrin II yarısından günümüzədək olan dövrün etnoqrafik materiallarını əhatə edir. Bu zalda xalça məmulatları, milli geyimlər, məişət əşyaları və s. yer alacaq. Birinci mərtəbədə yerləşən ekspozisiyada işlərin böyük hissəsi tamamlanıb. Ziyarətçilərin marağına səbəb olacaq ekspozisiya ölkəmizin tarixi-mədəni zənginliklərinin təbliği baxımından əlverişli imkan yaradacaq. Ekspozisiyanın yaxın gələcəkdə ziyarətçilərin ixtiyarına verilməsi planlaşdırılır.

**Lalə Azəri**

# Vətən müharibəsindən 13 gün sonra...

"Mən belə bir igid, qəhrəmanın həyat yoldaşı olduğum üçün fəxr edirəm, Şakirin iki əmanətini böyüdürəm. Böyük oğlum Cəmil indidən "Böyüyəndə mən də atam kimi hərbçi olacağam, əlimdə silah tutacağam" deyir".



Bu fikirlər 44 günlük Vətən müharibəsinin şəhid giziri Şakir Cəmillinin həyatı yoldaşı Abuzər xanıma məxsusdur.

Onlar 2017-ci ildə ailə həyatı qurmuşdular. Tez-tez təlimlərdə, ezamiyyətlərdə olan Cəmil ailəsinə çox bağlı idi. İşinə çox məsuliyyətlə yanaşırdı. Zatən seçdiyi peşə də bunu tələb edir. Heç vaxt evdə xidməti ilə bağlı danışmazdı. Ona görə də Abuzər xanım deyir ki, hərb sənəti çətin olduğu kimi, hərbçinin həyat yoldaşı olmaq da həm çətindir, həm də şərəflidir.

Şakir Arif oğlu Cəmilli 1992-ci il dekabrın 4-də Füzuli rayonunun Araz Dilağarda kəndində anadan olub. Kənd tam orta məktəbində təhsilini başa vurub hərbi xidmətə yollanır. Hərbi xidmətdən qayıtdıqdan sonra bir sıra sahələrdə çalışsa da, hərb sahəsinə marağı yenidən o şanlı formanı geyinməsinə səbəb olur. 2015-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu hazırlığı kursuna başlayır. Kursu müvəffəqiyyətlə bitirərək N saylı hərbi hissədə silah təmiri bölüyünün təmir manqa komandiri vəzifəsində xidmətə başlayır.

Şakir 2016-cı ilin Aprel döyüşlərində Cəbrayıl rayonu ərazisindəki Lələtəpə yüksəkliyinin düşməndən azad edilməsində böyük şücaət göstərir. Müdafiə Nazirliyi tərəfindən mükafatlandırılır.

Şakir 2020-ci ildə gizir hazırlıq kursuna qəbul olunur. Kursu bitirdikdən sonra N saylı hərbi hissənin zirehli tank təmiri bölüyünün xüsusi işlər taqımının komandiri vəzifəsində xidmətini davam etdirir. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsində taqım komandiri kimi döyüşlərə qatılır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Hadrut, Laçın, Xocavənd və Şuşa istiqamətində düşmənin vurularaq sıradan çıxarılmış texnikalarının təxliyə edilməsində fəallıq göstərir. Döyüşlərin birində vurulmuş tankları təxliyə edərkən düşmən tərəfindən açılan atəş nəticəsində başından və sağ əlindən yaralanır. Buna baxmayaraq ona verilən tapşırığı layiqincə yerinə yetirərək yaralı halda texnikaları döyüş bölgəsindən çıxarır. Şakir öz komandası ilə birlikdə Vətən müharibəsi zaman düşmənin ümumilikdə 200-ə yaxın texnikasını qənimət olaraq təxliyə edir. O, noyabrın 23-də Şuşa istiqamətində tankda hərəkət edərkən havanın qatı dumanlı olması nəticəsində tank aşır. Nəticədə qəhrəman gizir şəhidlik zirvəsinə ucalır. Bir gün sonra doğulduğu kənd qəbiristanlığında torpağa tapşırılır.

Şakirin Cəmil və Emil adlı iki övladı Vətənə əmanət qalıb. Abuzər Cəmilli Vətən müharibəsi zamanı, Şakirlə ara-sıra əlaqə saxladığını deyir: "Hər dəfə danışanda hər şeyin yaxşı olduğunu, ondan nigaran qalmamağımı söyləyirdi. "Sən hərbçi yoldaşısan, möhkəm olmalısan" deyirdi".

Şəhidin atası Arif Cəfərov, anası Kiçikxanım Cəfərova Şakirlə hər zaman qürur duyduqlarını söyləyir, belə mərd və qorxmaz oğul böyüdüb boya-başa çatdırdıqları üçün fəxr hissi keçirirlər.

Şəhidin böyük qardaşı Elşən Cəmilli də 2016-cı ilin Aprel döyüşlərində iştirak edib. 44 günlük Vətən müharibəsində Talış və Suqovuşan istiqamətindəki döyüşlərdə şücaət göstərərək qazi adını qazanıb.

Qeyd edək ki, Şakir Cəmilli ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Allah rəhmət eləsin.

**Nurəddin**



# "Danışan" əllər

## Kimlərdən və nələrdən "danışır"?

Azərbaycan heykəltaraşlığının zəngin tarixi və özünəməxsus ənənələri var. Cəlal Qaryağdı, Fuad Əbdürrəhmanov, Mirəli Mirqasımov, Tokay Məmmədov, Ömər Eldarov, Natiq Əliyev, Fuad Salayev, Fazil Nəcəfov, Akif Əsgərov, Səlhab Məmmədov, Əli İbadullayev, İmran Mehdiyev, Azad Zeynalov və başqaları ölkəmizdə bu sənətin formalaşması və inkişafında mühüm rol oynayıblar. Bir sıra heykəltaraşlarımızın ərsəyə gətirdikləri abidələr Azərbaycanla yanaşı, xarici ölkələrdə də qoyulmuş, ədəbi-mədəni keçmişimizin tanıtımına töhfə verib.

Müasir Azərbaycan heykəltaraşlığı müxtəlif sənət üslubları, istiqamətləri üzrə inkişaf edir, bu sahənin ideya-estetik baxımdan zənginliyinə əlavə rəng qatır. Amerika mütəfəkkiri R.Emerson yazırdı: "İdeyalar yaxşı və güclü insanların iradəsi ilə həyata keçməlidir, yoxsa o xəyaldan başqa bir şey olmayacaq". Bəli, sənətdə iz açan ideyalar da istedad və iradənin məhsuludur.

Bu yazıda biz gənc heykəltaraşlar, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının yetirmələri Namiq Hüseynov və Kənan Əliyevin "Danışan" əllər" layihəsi barədə söz açacağıq. Bəs bu əllər nədən və kimdən "danışır"?

Ümumiyyətlə, əllər şüurla birləşdikdə gücə sahib olur. Əli yönləndirən şüurdur. Əllərdə baş verən hallar nəinki sahibinin sağlamlıq durumunun göstəricisi olmaqla yanaşı, əl quruluşu onun sahibinin hansı peşə ilə məşğul olduğunu nümayiş etdirir.

Gənclərin layihəsində hansı əllər heykələ döndü? Hansı əllər "danışmağa" başladı"? Bu emalatxanada bütün əllər "danışır". Musiqidən, rəssamlıqdan, rəqsdən, həkimlikdən, tarixdən, siyasətdən, 44 günlük Vətən müharibəsindən...

Layihənin yaranma səbəbi 44 günlük Vətən müharibəsində birliyimizin və gücümüzün simvoluna çevrilən "Dəmir yumruq" oldu. Bütün Azərbaycan xalqı bir yumruq ətrafında birləşdi. Kənan Əliyev və Namiq Hüseynov da müasir tariximizin bu şanlı səhifəsini sənətin dilində fərqli formada təqdim etməyə çalışdılar.

Emalatxanadakı bütün əllər abidələrinə diqqət yetirdikdə onların hər birinin öz sahibinin məsləyinin ab-havasını ötürdüyünü hiss etmək olur. Bu nümunələrdə əl sahiblərinin enerjisini də duymaq mümkündür.

Heykəltaraşlar ilk olaraq Vətən müharibəsinin bir neçə qəhrəmanının əllərinin surətini çıxarıblar. Onlardan biri müharibə zamanı əlini bilək hissədən itirib. Digər qazimizin silahla işləyən bir barmağı qalıb.

Milli Qəhrəman, polkovnik Sahil Məmmədov layihə haqqında öz təəssüratlarını bölüşərək, bu nümunələrin gələcəkdə muzeylərdə özünə yer tapacağını və müxtəlif sərgilərdə nümayiş olunacağını bildirib.

Vətən Müharibəsi Qəhrəmanları mayor Şahin Hüseynquliyev, kapitan Nicad Bədəlov, Milli Qəhrəman Fariz Qəhrəmanov və digər tarix yazan igidlərimiz də bu layihənin iştirakçısı olublar.

Layihədə Azərbaycan mədəniyyətinin görkəmli simalarına daha geniş yer verilib. Tanınmış teatr və kino xadimləri Şəfiqə Məmmədova, Hacı İsmayılov, Rasim Balayev, Fəxrəddin Manafov və başqalarının da əlləri abidəyə çevrilib. Sevilən aktyorumuz Hacı İsmayılov layihənin xatirə kitabına bunları qeyd edib: "İnsan əlləri çox qəribə möcüzələrə malikdir. Heç təsadüfi deyil ki, belə bir kəlam var, "Əllərinizə sağlıq". Bu əllərin, bu barmaqların sayəsində dahi Nizami, Füzuli öz ölməz əsərlərini qələmə almışlar. Dahi bəstəkarımız Üzeyir Hacıbəyli o əllərin sayəsində özünün ölməz əsərlərini yaratmışdır".



Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələri Ömər Eldarov, Natiq Əliyev, Arif Əziz, Sakit Məmmədov, Fərhad Xəlilov, Tofiq Ağababayev və başqalarının möcüzələr yaradan əlləri heykələ çevrilib. Tanınmış memarlar Elbay Qasımzadə, Elxan Əsədov və digərlərinin ustad əllərinin surəti çıxarılıb. Memarlar İttifaqının sədri Elbay Qasımzadə layihə ilə bağlı təəssüratlarını bölüşərkən "Maraqlı layihədir. Bu gün mahiyyəti bəlkə anlaşılmasa da, gələcək üçün faydalıdır", – deyə bildirib.

"Danışan" əllər" arasında Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən Anar, Elçin, Çingiz Abdullayev, Nəriman Həsənzadə, Ramiz Rövşən, musiqi xadimləri Tofiq Bakıxanov, Fidan və Xuraman Qasımovalar, Fərhad Bədəlbəyli, Azər Zeynalov, Alim Qasımov, Mübariz Tağıyev, Niyaməddin Musayev, Arif Babayev, Səkinə İsmayılova, Ramiz Quliyev, kino xadimləri Oqtay Mirqasımov, Vaqif Mustafayev və başqalarının da əl izləri var.

Bu fərqli sənət sahələrini təmsil edən insanların əllərinin əks olunduğu nümunələr bizə onların yaradıcılıq dünyasının cizgilərini görmək, hiss etmək imkanı yaradır.

Vətənə xidmət, onun uğrunda mübarizə aparmaq təkcə ön cəbhədə, döyüş meydanında olmur. Layihənin iştirakçısı olan beynəlxalq qrosmeyster Aynur Sofiyeva "Danışan" əllər" layihəsi haqqında deyib: "Çox maraqlı və dərin məna daşıyan layihənizdə mənə də yer ayırdığınız üçün çox xoşbəxtəm. "Danışan" əllər" Azərbaycanın şərəf tarixini nümayiş etdirir".

Əslən Azərbaycandan olan, xaricdə yaşayıb təəssübümüzü çəkən, haqq səsimizi beynəlxalq aləmə çatdıran insanların da əllərinin surətlərinə rast gəlmək olur. Bu sırada Mixail Qusman, Reza Deqati, Hulusi Kılıç, Arzu Ənvər, Bədrəddin Dalan və başqalarını qeyd edə bilərik.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə ilk dəfə "Danışan" əllər" layihəsi çərçivəsində "Nine Senses" yaradıcılıq və özünüinkişaf üçün incəsənət mərkəzində Kənan Əliyev və Namiq Hüseynovun "Əldən-ələ, dahidən dahiyə: 100" adlı sərgisi təşkil olunub. Zərif əllərinin surəti ilə bu sərgidə yer alan Leyla Əliyeva layihəni qiymətləndirərək xatirə dəftərinə ürək sözlərini qeyd edib...

Beləliklə, "Danışan" əllər" dahilərdən, sənətkarlardan, məşhurlardan və demək olar, bütün sahələrdən "danışır". Namiq Hüseynov və Kənan Əliyevin müəllifi olduqları bu ideyanın "Dəmir yumruq" ətrafında birləşib genişlənəcəyinə inanırıq. Gənc heykəltaraşlara yeni yaradıcılıq uğurları arzulayırıq.

**Səkinə Bağırova**
**rəssam, sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# Zəlimxan Yaqubun şeirləri Gürcüstan portalında

Gaxa.ge portalında Xalq şairi Zəlimxan Yaqubun (1950-2016) gürcü dilinə tərcümə olunmuş "Azərbaycan torpağıyam" və "Mənə ümid kimi bax" şeirləri dərc olunub.




Xalq şairinin şeirləri Dövlət Tərcümə Mərkəzinin "Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi çərçivəsində Gürcüstanın populyar ədəbiyyat resursunda yayımlanıb.

Əsasən gürcü ədəbiyyatının aparıcı simalarının yaradıcılığını işıqlandıran portal Dövlət Tərcümə Mərkəzi ilə əməkdaşlıq çərçivəsində Azərbaycan ədəbiyyatının yayınına xüsusi yer ayırır.

Şairin yaradıcılığı haqqında məlumatla birlikdə təqdim olunan şeirləri gürcü dilinə Dövlət Tərcümə Mərkəzinin mütəxəssisi, şair-tərcüməçi İmir Məmmədli çevirib.

# Abdulla Şaiqin "Gülşəni-ədəbiyyat" müntəxəbatı nəşr olunub

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi şurasının qərarı ilə "Abdulla Şaiq Talıbzadə. Gülşəni-ədəbiyyat" kitabı nəşr olunub.

Kitabı institutun Farsdilli əlyazmaların tədqiqi şöbəsinin aparıcı elmi işçisi filologiya üzrə fəlsəfə doktoru Aynurə Əliyeva tərtib edib. O, həmçinin kitaba ön söz yazıb, lüğət, qeyd və izahlar əlavə edib.

"Gülşəni-ədəbiyyat" ("Ədəbiyyat bağçası") XX əsr Azərbaycan ədəbiyyatı və pedaqoji fikir tarixində özünəməxsus yer tutan görkəmli ədib Abdulla Şaiqin 1910-cu ildə Bakıda fars dilində nəşr etdirdiyi və uzun illər tədris vəsaiti kimi istifadə olunan ədəbiyyat müntəxəbatıdır. İlk dəfə Azərbaycan dilinə tərcümə olunan kitab ibrətamiz fikirlər, əxlaqi-mənəvi dəyərlər aşılayan bədii nümunələrdən ibarət topludur.

Yeni nəşrin redaktoru Əlyazmalar İnstitutunun Farsdilli əlyazmaların tədqiqi şöbəsinin böyük elmi işçisi Mustafa Mailoğludur.

# "Özü vəzir, sözü şah"

2023-cü ilin Şuşa şəhərinin "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunması, eləcə də Türk dünyasının görkəmli şəxsiyyətlərinin ədəbi irsinin təbliği məqsədilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən Azərbaycanın görkəmli şairi Molla Pənah Vaqif haqqında "Özü vəzir, sözü şah" adlı kitab nəşr edilib.

Fonddan bildirilib ki, kitabda Azərbaycan və əcnəbi şairlərin Vaqifə həsr olunmuş şeirləri, onun əsərlərinə yazılan nəzirələr toplanıb. Nəşrdə "Vaqif" dastanı və Səməd Vurğunun eyniadlı dram əsəri və Vaqifin Molla Vəli Vidadi ilə deyişməsi də yer alır. Topluda şairin təsviri sənətdəki obrazını canlandıran əsərlər, müxtəlif illərdə "Vaqif" tamaşasından fotolar da verilib.

Fondun prezidenti Günay Əfəndiyeva kitaba ön söz yazıb. Kitabın tərtibçisi Fərid Hüseyn, bədii tərtibatçısı Əməkdar incəsənət xadimi Ziyadxan Əliyevdir.



# Ümid yenə gümana qaldısa...

Bitməkdə olan mövsüm daha bir premyeraya şahid oldu. İyunun 30-da Akademik Milli Dram Teatrında "Şükriyyə" tamaşasının ilk nümayişi keçirildi.

Yazıçı Cavid Zeynallının "Şükriyyə" pyesi əsasında hazırlanan eyniadlı tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Bəhram Osmanovdur. Yeni yaradıcılıq işində Əməkdar artist Münəvvər Əliyeva (Şükriyyə), Xalq artisti Nurəddin Mehdixanlı (Fyodor Alekseyeviç), Xalq artisti Əli Nur (Süleyman bəy), Əməkdar artistlər Mehriban Xanlarova (Zöhrə), Vəfa Rzayeva (Mariya), Şəlalə Şahvələdqızı (Qadın müstəntiq), aktyorlar Afət Məmmədova (Tamar), Rada Nəsibova (Lola), Ləman İmanova (Suğra), Dilarə Nəzərova (Olqa), Rüstəm Rüstəmov (Nəzarətçi), Aylin Həşimova (Lali), Lalə Süleymanova (Nino), Nəzrin Abdullayeva (Ayçiçək), Elsevər Rəhimov və Tural İbrahimov (Nəzarətçilər) çıxış edirlər.

Səhnə tərtibatçısı Samirə Həsənova, geyim üzrə rəssamı Aygün Mahmudova, işıq rəssamı Rafael Həsənov, musiqi tərtibatçısı Kamil İsmayılov, rejissor assistenti Nərmin Həsənovadır.

Tamaşa Azərbaycanın istiqlal şairi Əhməd Cavadın həyat yoldaşı Şükriyyə Axundzadənin Qazaxıstandakı sürgün həyatı haqqındadır. 1937-ci ildə Şükriyyə xanıma 8 il həbs cəzası verilib və o, "xalq düşməninin arvadı" kimi Şimali Qazaxıstana – Akmola vilayətinə əmək koloniyasına göndərilib...

Əksər oxuculara bəlli olan mövzu barədə bu qədər. Keçək ikihissəli tamaşaya və onun doğurduğu təəssürata.

Hamımız bilirik ki, Stalin repressiyasının qurbanlarından biri də o idi. Sarışın, uzunsaçlı, mavigözlü gözəl qadın. Acar knyazı Süleyman bəyin sevimli qızı. Övladları ilə qürrələnən dörd oğul anası. Yaşadığı şəhərin ictimai-mədəni həyatında kübarlığı ilə seçilən və çox vaxt da həsədlə süzülən xanım. Sürgünlərdə viran olan ömrünün acı illərinə, sonsuz məşəqqətlərinə rəğmən "Təşəkkürlər, Tanrım" deyən möhtəşəm insan. Böyük istiqlal şairimizin əbədi sevdası, ömürgün yoldaşı, sevimli Şükriyyəsi...

Tamaşada da biz dramaturji materialdan irəli gələrək qəhrəmanımızın bütün gözəllik, zəriflik və buna rəğmən iradə və mübarizəsini gördük. Amma necə?

Şükriyyə sıradan bir "xalq düşməni" arvadı olmaya bilər və biz ona böyük ehtiram, rəğbət göstərməkdə azadıq. Amma onu müqəddəs Məryəm səviyyəsinə qaldırıb, tamaşa boyu qadın, ana faciəsindən çox, az qala mələk kimi təqdim edib, sona qədər "Mən səni bağışladım" eyforiyasına qapdırmaq olmazdı.

O, sözsüz ki, əzablar çəkir. Körpə balalarından, sevimli yarından ayrı düşüb. Amma biz bu qadının faciəsini sönük, çoxdan səbir dəyirmanında üyütmüş görürük. Niyə ondan – sadə, sevimli, gözəl qadından mifik qəhrəman düzəldək? Tamaşa boyu biz niyə onun sevimli əri və övladları ilə xəyalı ünsiyyətini yox, onu illər əvvəl inkar edən atası Süleyman bəylə dialoqunu görürük? Uzaq Akmolada necə əzablar çəkən, məhrumiyyətlər görən və bundan illər sonra özü ətraflı bəhs edən Şükriyyə xanımı unudub, niyə "X" qəhrəman düzəldək?

Özünün bütün əzəməti ilə səhnəni dolduran divanə Zöhrə (M.Xanlarova) obrazı. Körpə uşağını itirdikdən sonra paralanan ürək və zehni ilə Şükriyyə, eləcə də onun timsalında digər qadınlara gah nümunə, gah ibrət, gah da, sadəcə, xəbərdaşıyan olan Zöhrənin əzablarını, şıltaqlıq və alçaldılmış səadətini təqdimat bacarığı aktrisanın istənilən obraz və ruh qatında sərbəst olduğunu göstərdi.

Quruluş müəllifinə həm də illərdir bizim adda-budda rollarda, daha çox da uşaq tamaşalarında nə bilim neçənci planda göstərilən aktrisanı mərkəzə çəkdiyinə (özü də baş qəhrəmanın fonunda) görə təzim düşür.

Amma burada da qeydsiz ötüşə bilməyəcəyik. Pişikləri əmizdirən dəli Zöhrə. Onun yalnız bu təqdimatının, düşərgədəki yeni doğulmuş anasız küçükləri əmizdirmək üçün axtarılmasının hansı ideoloji ismarış olduğunu aydın hiss etsək də, keçidin bu cür verilməsi bütün mental və sakral məqamlarda ifrat idi. Hərçənd hamımız bilirik ki, o düşərgələrdə qadınların başına olmazın oyunlar gətirilib və rejissor bunu əyani göstərmək üçün təsərrüfatlarda ilişmədən quyunun ən dibinə enib, son murdarlığı səhnənin ortasına "tullayır".

Qışqır-bağır, yersiz işgəncə təsvirləri, dindirmələrdəki detalçılıq, qadınlara qarşı fiziki və cinsi zorakılığın təzahürləri, demək olar ki, yox idi. Amma tamaşaçı arxa planda nələrin olub-olacağından sözsüz ki, xəbərdar idi. Rejissor hələ tamaşanın əvvəlində sürgünə göndərilən qadınların soyunub-geyinmə səhnəsini, öz bədənləri ilə təmaslarındakı tükürpərdən həssaslığı və bu fonda nəzarətçilərin bağırtıları altındakı həyəcanlı ürkəkliklərini heç bir əlavə detala qaçmadan vermişdi. Biz, qara-boz çamadanları və nimdaş paltarlarından başqa heç nəyi olmayan qadınları səhnənin önündəki dəmir yolundan, relslər üzərindən addımlamaqla yola salırıq. Deməli, qarşıda onları nələrin gözləyəcəyini indidən bilirik. Digər tərəfdən, ustalıqla başqa bir detala işarə vurulur: o qadınlar ilə müqayisədə Şükriyyənin iffət və ləyaqətini qoruması nə onun qəhrəmanlığı, nə də onların zəifliyi deyil. Ən əsası, rejissor qadınların ümumi planda alçaltmamış və imperiyanın diktəsinin, sürgünün bütün murdarlıqlarını arxa fona keçirmişdi.





Yəqin bütün bunların nəticəsi idi ki, biz Şükriyyəni yalnız gözəl qadın və insan ilə mələk arasında çarmıxa çəkilən obraz olaraq gördük. Hərçənd Münəvvər Əliyevanın aktrisa kimi imkanlarında plastika və işlək mimikaları ilə lal təsvirindən qaçmaqla təsirli oyununu görə bilərdik.

Özündən başqa hər kəsə təsəlli (ağıl da demək olar) verən bu qadın səhnədən yaddaşımda inildəyən insanların ümid və bağışlama tanrısı kimi qaldı. Bəs insan olaraq özünün ağrı və əzabları, itki və ümidləri, darmadağın olmuş həyatına həsrəti harada qaldı?...

Eyni sözləri katibə Mariyaya (V.Rzayeva) da aid etmək olar. Əslində, istər dramaturq, istərsə də rejissor ömrü boyu müdir katibəsi kimi bütün "imtiyazlardan" istifadə edən fahişə qadını niyə qəhrəman bəraətləri ilə təqdim edir? Öz müdirinə belə sadiqlik göstərməyib, onu satan, gəlib düşərgə yoldaşlarına da xəyanətlər edən bu qadın hər halı ilə yadımda qurumuş qara çörəyi çox gözəl çeynəyən qadın kimi qaldı. Vəssalam.

Ondan fərqli olaraq gürcü ana Tamar (A.Məmmədova) – Kobaya (Stalin) nifrət püskürüb, hər vəchlə övladını qorumaq istəyən qadın daha təsirli idi. O, plastikası, tamaşaçısı ilə seçmiş olduğu ünsiyyət dili, özündən əvvəl danışan cizgiləri fonunda gözəl idi. Sözsüz ki, tamaşanın susmuş vicdanlara hayqırtısı olan dinməz "danışan" qəhrəmanı balaca Lali (A.Həşimova) oldu.

Tamaşada bir də bütün əclaflığına rəğmən öz həqiqətində gah nöqtə boyda olan, gah da dağa dönən əzazil Fyodor Alekseyeviç (N.Mehdixanlı) də var. Çətin, təzadlı, bir o qədər də mürəkkəb xarakterdir. Sözsüz ki, N.Mehdixanlı özünün aktyor bacarığını bu əclafdan böyük qəhrəman, məsum uşaq, şorgöz kişi, mənən zorlanmış yeniyetmə, alçaldılmış ideologiya nökəri... düzəltməklə işə saldı və 50 yaşında ata olmaqla bütün günahlarından arınan obraza çevrildi.

İllər əvvəl onun xeyir-duasını almayıb Cavada qoşulub qaçan Şükriyyənin atası Süleyman bəyin ağrısını Əli Nur da təsirli duydu. Övlad itkisini və peşmanlıqla keçmişin sızıltısını iliyinədək hiss edən Süleyman bəy övlad itkisini dadmış ata Ə.Nurun ifasında tamamlanmışdı.

Tamaşanın digər qadın qəhrəmanları üzərindən statik oyun ilə, özü də o qədər ötəri keçildi ki, yadda adda-budda detallar qaldı. Məsələn, Lolanın (R.Nəsibovanın) təsirsiz etirazı, qadın müstəntiqin (Ş.Şəhvələdqızı) natamam fədakarlığı, Suğranı (L.İmanova) mahiyyətdən sapması və s.

Bütün bunların fonunda ən cəlbedici məqam tamaşanın ümumən yorucu olmamağı idi.

Tamaşanın səhnə tərtibatı sadə idi. Ümidə işartı, yol varsa, mütləq gediləcək mənzil də var. Buna hesablanmış dəmir yolu, da Vinçinin "Sonuncu şam yeməyi"ni andıran böyük masa, səhnənin arxasında arabir enib-qalxan tikanlı məftillər, soyuq, dondurucu qar təsviri, aclıq və səfalətin nümayişi – bir vedrə murdar su və qurumuş çörək, düşərgə işıqları (projektorlar) kimi sadə təsvir mahiyyəti izah etmişdi.

İşıq həlli isə birmənalı möhtəşəm idi. Mövzu və onun yükünü tez-tez səhnədən tamaşaçı üzərində "atan" işıq izləyicini mətn və hərəkətdən əvvəl səhnəyə "calaq" edir. Doğrudur, fəsil, hadisə, şəkil və pərdələr arasındakı keçiddə biz yalnız "soyuq" işıqlarda qaldıq, amma bütün hallarda, işıq həlli yerində idi. Bu mənada gürcü və Azərbaycan, eləcə də dünya musiqi nümunələrindən yerində, özü də dramaturji xəttə uyğun istifadə də rejissor ilə musiqi tərtibatçısı arasında yaxşı dialoqa və quruluş müəllifinin yüksək musiqi zövqünə işarəydi.

Bu fonda bir əlamətdar hadisə də, sözsüz ki, akademik teatrın az qala repertuara həkk olunmuş klassik müəllifləri fonunda nisbətən gənc, yeni imzaya qucaq açması idi. Sözsüz ki, bir də rejissorun bu ilkliyə inanması və onun fikir axınını bir səhnə işində cəmləməyə çalışması...

**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 15-18 iyul

### Azərbaycan

**15 iyul 1925** – Xalq artisti, müğənni-pianoçu, professor Rauf İsrafil oğlu Atakişiyev (1925 – 3.2.1994) Bakıda anadan olub. 1953-cü ildən Akademik Opera və Balet Teatrının solisti olub, bir çox xarici ölkələrdə çıxış edib.

**15 iyul 1926** – Xalq artisti Sədayə İsmayıl qızı Mustafayeva (1926 – 13.8.2004) Şəkidə anadan olub. Şəki, Gəncə Dram teatrlarında çalışıb, filmlərdə ("Mən ki gözəl deyildim", "Ölsəm, bağışla", "Həm ziyarət, həm ticarət" və s.) yaddaqalan obrazlar yaradıb.

**15 iyul 1928** – Tanınmış tərcüməçi Mehdi Mirkişi oğlu Mirkişiyev (1928-1992) Cəbrayıl rayonunun Mirzəcanlı kəndində anadan olub. Rus dilindən çoxsaylı ədəbi tərcümələr edib.

**15 iyul 1930** – Bəstəkar, Xalq artisti, professor Azər Hüseyn oğlu Rzayev (1930 –14.12.2015) anadan olub. "Bakı-90" simfoniyası, kamera orkestri üçün "Noktürn" və s. əsərlərin müəllifidir. Filarmoniyanın bədii rəhbəri, Opera və Balet Teatrının direktoru olub.

**16 iyul 1913** – Xalq artisti, müğənni Mirzə Əbdülcabbar oğlu Babayev (1913 – 13.1.2003) Bakıda doğulub. Azərbaycan Dövlət Filarmoniyasının solisti olub, filmlərdə ("Telefonçu qız", "Dərviş Parisi partladır", "Dəli Kür" və s.) maraqlı rollar oynayıb.

**16 iyul 1934** – Əməkdar memar, Dövlət mükafatı laureatı Rasim Həsən oğlu Əliyev (1934 – 13.11.2021) anadan olub. Bakı şəhərinin baş memarı (1974-1988) işləyib. Bir sıra mədəniyyət saraylarının, Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin (Ö.Eldarovla birlikdə) layihə müəllifidir.

**16 iyul 1949** – Əməkdar artist, bəstəkar, skripka ifaçısı Fərhəng Rəhim oğlu Hüseynov (1949 – 16.2. 2010) anadan olub. Yaponiyada "İpək Yolu" müsabiqəsinin (1991) qalibi kimi "Kodayu" operasını yazıb, simfonik əsərlər müəllifidir.

**16 iyul 1958** – Xalq artisti İlham Təvəkkül oğlu Əsgərov (1958 – 6.9.2015) Masallı rayonunun Xoşçobanlı kəndində doğulub. Milli Dram Teatrında, televiziya tamaşalarında, filmlərdə ("Doğma sahillər", "Biz qayıdacağıq!") maraqlı rollar oynayıb. Filmlərin səsləndirilməsində iştirak edib.

**16 iyul 2022** – Azərbaycan telejurnalistikasının tanınmış simalarından biri, Əməkdar jurnalist Mais Məmmədov (12.7.1938 – 2022) vəfat edib.

**17 iyul 1487** – Azərbaycan Səfəvilər dövlətinin banisi, görkəmli sərkərdə, şair Şah İsmayıl Xətai (1487 – 23.5.1524) Ərdəbildə doğulub. 1501-ci ildə Təbrizi paytaxt elan etməklə Səfəvilər dövlətini qurub. "Xətai" təxəllüsü ilə şeirlər yazıb, "Dəhnamə" poemasının müəllifidir.

**17 iyul 1898** – Ədəbiyyatşünas, publisist Əbdülvahab Hacı Zeynalabdin oğlu Məmmədzadə (Yurdsevər; 1898-1976) Bakıda doğulub. 1923-cü ildə həbs edilib, 10 il həbs və sürgündən sonra mühacirətə gedib. 60-70-ci illərdə İstanbulda Azərbaycan Milli Mərkəzinə rəhbərlik edib, Ankara dəfn olunub.

**17 iyul 1924** – Azərbaycanda ümumittifaq maarifçilik hərəkatı – "Rədd olsun savadsızlıq" cəmiyyətinin şöbəsi təşkil edilib.

**17 iyul 1953** – Xalq artisti Telman Abbasqulu oğlu Adıgözəlov (1953 – 15.4.2010) Balakən rayonunda doğulub. Akademik Milli Dram Teatrında, televiziya tamaşalarında maraqlı obrazlar yaradıb. Filmlərdə ("Anlamaq istəyirəm", "Günaydın, mələyim!" və s.) çəkilib.

**17 iyul 1965** – Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivi yaradılıb. Arxiv görkəmli ədəbiyyatşünas alim Salman Mümtazın adını daşıyır.

**17 iyul 2022** – Bəstəkar, Xalq artisti, professor Sevda Mirzə qızı İbrahimova (28.7.1939 – 2022) vəfat edib. Müxtəlif janrlarda əsərlərin ("Vətən şəhidləri" kantatası, "Əhvali-ruhiyyələr", "Azərbaycan təranələri" və s.) müəllifidir.

**18 iyul 1903** – Əməkdar incəsənət xadimi Sergey Arsenyeviç Mayorov (1903-1973) anadan olub. Dövlət Rus Dram Teatrında (1926-1937) quruluşçu rejissor və baş rejissor işləyib.

**18 iyul 1927** – Tanınmış heykəltaraş, Xalq rəssamı Tokay Həbib oğlu Məmmədov (1927 – 2.5.2018) Bakıda anadan olub. Üzeyir Hacıbəylinin, Nəsiminin (İ.Zeynalovla birlikdə), Füzulinin (Ö.Eldarovla birlikdə), Koroğlunun Bakıda ucaldılan heykəllərinin müəllifidir. Dövlət Rəssamlıq Akademiyasının professoru kimi gənc heykəltaraşların yetişməsinə töhfələr verib.

**18 iyul 1932** – Ədəbiyyatşünas, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü Azadə Cəfər qızı Rüstəmova (1932-2006) Bakıda doğulub. Kitabları: "Azərbaycan epik şeirinin inkişaf yolları", "Məhəmməd Füzuli", "Nizaminin poeziya sələfləri" və s.

**18 iyul 1936** – Azərbaycan Xalq Maarif Komissarlığının əmri ilə Bakı Uşaq Teatrı (1928-ci il 20 sentyabrda yaradılmışdı) Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı adlandırılıb. Teatra rus-sovet yazıçısı Maksim Qorkinin adı verilib.

**18 iyul 1940** – Əməkdar artist, rəqqas Qorxmaz Ağababaoğlu Qurbanov (1940 – 20.5.2021) anadan olub. Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının baletmeysteri, bədii rəhbəri vəzifələrində çalışıb.

**18 iyul 2021** – Ustad jurnalist, yazıçı-publisist Tahir Heydər oğlu Abbaslı (25.9.1948 – 2021) vəfat edib. Uzun illər "Mədəniyyət" qəzetində çalışıb.

### Dünya

**15 iyul 1606** – Holland rəssamı Rembrandt Hermens Van Reyn (Rembrandt Harmenszoon van Rijn; 1606-04.10.1669) anadan olub. Məşhur əsərləri: "Samson və Dalila", "Valtasar qonaqlığı", "Danaya", "Avropanın oğurlanması" və s.

**15 iyul 1901** – İtalyan filosofu, ekzistensializmin tanınmış simalarından biri Nikola Abbanyano (Nicola Abbagnano; 1901-1990) anadan olub.

**15 iyul 1919** – İngilis yazıçısı Ayris Merdok (Jean Iris Murdoch; 1919-1999) anadan olub. "Tor altında", "Dəniz, dəniz", "Mələklər zamanı", "Qara şahzadə" və s. romanların müəllifidir.

**15 iyul 1924** – Çeçen rəqqası, SSRİ Xalq artisti Mahmud Esenbayev (1924-2000) anadan olub. "Azərbaycanfilm" kinostudiyasında rəqqasa həsr olunmuş "Əmək və qızılgül" ("Mən rəqs edəcəyəm") filmi (rejissor Tofiq Tağızadə) çəkilib.

**16 iyul 1723** – İngilis rəssamı və incəsənət nəzəriyyəçisi Coşua Reynolds (Joshua Reynolds; 1723-1792) anadan olub. Məşhur əsərləri: "Veneranın kəmərini açan Amur", "İlanı boğan balaca Herkules" və s.

**16 iyul 1911** – Amerikalı aktrisa və rəqqasə, "Oskar" mükafatı laureatı Cincer Rocers (Ginger Rogers – əsl adı Virginia Katherine McMath; 1911-1995) anadan olub.

**16 iyul 1928** – Məşhur rus şairi Andrey Dementyev (1928 – 26.6.2018) anadan olub. Populyar mahnıların sözlərinin müəllifidir.

**17 iyul 1846** – Rus alimi, səyyah və etnoqraf Nikolay Mikluxo-Maklay (1846-1888) anadan olub. Cənub-şərqi Asiyanın, Avstraliyanın müxtəlif xalqlarının etnoqrafiyasını tədqiq edib.

**17 iyul 1888** – İsrail yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1966) Samuel Aqnon (Samuel Josef Agnon; 1888-1970) anadan olub. "Toy talvarı", "Gecə qonağı" və s. romanların müəllifidir.

**17 iyul 1889** – Amerika yazıçısı, detektiv əsərlərin müəllifi Erl Stenli Qardner (Erle Stanley Gardner; 1889-1970) anadan olub. 100-dən artıq romanın müəllifidir.

**18 iyul 1811** – İngilis yazıçısı Vilyam Tekkerey (William Makepeace Thackeray; 1811-1863) anadan olub. "Şöhrətpərəstlik yarmarkası", "Snoblar kitabı" və s.

**Hazırladı: V.Orxan**

# Azərbaycan filmi "On5sıfır7" kino həftəsində

## "Yarımçıq xatirələr" İstanbulda nümayiş olunub






11-15 iyul tarixlərində İstanbulda 15 Temmuz Dərnəyi və Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə "On5sıfır7 Film Həftəsi" keçirilir.

Açılış mərasimində çıxış edən 15 Temmuz Dərnəyinin sözçüsü Zekeriyya Erdem 2015-ci il iyulun 15-də Türkiyə dövlətinə qarşı çevrilişin millətin direnişi ilə baş tutmadığını və bu mövzunun həm ədəbiyyatda, həm kinoda çeşidli yönlərdən işıqlandırılmasının vacibliyini bildirib. O vurğulayıb ki, çevriliş cəhdinə qarşı kütləvi xalq müqaviməti hər hansı siyasi qurumun təşkil etmədiyi, təbii olaraq yaranan sivil bir direniş dastanıydı və biz bu dastanı mütləq sənətə köçürərək gələcək nəsillərimizə ötürməliyik.

Film həftəsinin proqramında 10-dan çox ölkədən bədii və sənədli ekran əsərləri yer alıb. Onların arasında kinorejissor Elxan Cəfərovun Qarabağ müharibəsindən bəhs edən "Yarımçıq xatirələr" bədii filmi də var. Ekran əsəri 2015-ci ildə "Azərbaycanfilm" kinostudiyasında istehsal olunub.

"On5sıfır7 Film Həftəsi"nin açılışında çıxış edən Elxan Cəfərov Türk dünyası əməkdaşlıq təşkilatlarının kino sahəsində daha sıx əlaqələr qurmasının vacibliyindən danışıb. Bildirib ki, tarixi qədər zəngin olan türk coğrafiyasında keçmişdən günümüzə gəlib çatan mirası gələcəyə daşımanın ən gözəl vasitələrindən biri kinodur və sənət aləmi üzərinə düşən missiyanı uğurla gerçəkləşdirmək üçün dövrün bütün fürsətlərindən yararlanmalıdır.

Qeyd edək ki, kino həftəsində "Yarımçıq xatirələr" bədii filmi iyulun 12-də nümayiş olunub.

# Azərbaycanlı şairə Kolumbiyada poeziya festivalında

Kolumbiyada ənənəvi olaraq keçirilən Beynəlxalq Medelin Şeir Festivalı bu il 33-cü dəfə təşkil olunub. 1-15 iyul tarixlərində gerçəkləşən festivalda ölkəmizi şairə Nigar Həsənzadə təmsil edir. O, həmçinin 13-18 iyulda Venesuelanın paytaxtı Karakasda keçiriləcək Dünya Poeziya Hərəkatının konqresinə qatılacaq.

Medelin şeir festivalının əsas məramı dünyada demokratik azadlıqlara, sosial dəyişikliklərə və sülhə töhfə verməkdir.

Azərbaycan Yazıçılar Birliyinin üzvü olan N.Həsənzadənin şeirləri tərcümə olunaraq müxtəlif ölkələrdə ədəbi mətbuatda dərc olunub. Onun şeirləri 2005-ci ildə Böyük Britaniyanın "Modern Poetry in Translations" jurnalının rusdilli şairlər antologiyasına daxil edilib.

# Polşa Seymi Ukraynanı Volın qətliamında günahını etiraf etməyə çağırıb

Polşa Milli Assambleyasının aşağı palatası – Seymdə İkinci Dünya müharibəsi zamanı Ukraynanın Volın vilayətində yaşayan polyak əhaliyə qarşı törədilmiş qətliamla əlaqədar ekshumasiyanın aparılması qərara alınıb.



Polşa Ukraynanın Volın qırğınına görə günahını etiraf etməsini gözləyir. Bu barədə Seymin Volın soyqırımı qurbanlarının xatirəsinin anım günü ilə bağlı qəbul etdiyi qətnaməsində bildirilir.

Sənəddə qeyd edilir ki, Ukrayna günahını etiraf etməli və İkinci Dünya müharibəsi qurbanlarının xatirəsini əbədiləşdirməlidir. Eksqumasiya aparmaq, bütün soyqırımı qurbanlarının xatirəsinin ehtirama yad etmək lazımdır. Səsvermədə 440 deputat iştirak edib və qətnamə yekdilliklə qəbul olunub.

Qeyd edək ki, 1943-cü ildə ukraynalı millətçilər Volındakı polyakları məhv etmək üçün əməliyyat keçiriblər. Məlumatlara görə, 50 minə yaxın polyak qətlə yetirilib. Polşa tərəfinin cavab cəza tədbirləri zamanı 2 minədək ukraynalı öldürülüb.

Polşa parlamenti iyulun 11-ni "Soyqırımı Qurbanlarının Milli Anım Günü" kimi təsis edib.



ABŞ-nin Milli Aeronavtika və Kosmos Administrasiyası – NASA-nın "James Webb" kosmik teleskopu "Yaradılış sütunları"nın detallı fotoşəkilini çəkib.

# Yerdən 6600 işıq ili uzaqlıqda...

## "Webb" teleskopu "Yaradılış sütunları"nın detallı fotosunu çəkib

Yer kürəsinə təxminən 6 min 600 işıq ili uzaqlıqda olan "Yaradılış sütunları"nın ulduzlararası qaz və tozdan ibarət olan görüntüsü astronomların böyük marağına səbəb olub. Sütunlara bənzəyən bu əsrarəngiz kosmik hadisə 5 işıq ili uzunluğunda olan nəhəng toz buludları şəklindədir. Fotoşəkildə arxa planda boz rəngdə qalın toz bölgələri görünür, üfüq işıqlarına bənzəyən qırmızı hissədə isə dağınıq qaz dumanı var.

Astronomlar bildirirlər ki, sütunların içərisində minlərlə ulduzun parlamasına baxmayaraq, onları yalnız yaxından və xüsusi cihaz vasitəsilə müşahidə etmək mümkündür. Mavi ulduzların isə qaz və toz dumanına səpələnmiş köhnə göy cisimləri olduğu aşkar edilib. Onların parıltısını görmək çox çətindir.

Alimlər çoxlu ulduzların olduğu "Yaradılış sütunları"nın yeni və detallı fotoşəkilini təhlil edərək belə qənaətə gəliblər ki, bu görüntü onların milyonlarla il davam edən yaranması və məhv olması prosesini öyrənməyə kömək edə bilər.

"Yaradılış sütunları" ilk dəfə 1995-ci və 2014-cü illərdə "Hubble" teleskopu tərəfindən qeydə alınıb, sonra 2022-ci ildə "James Webb" teleskopu onun fotoşəkilini çəkib.




Olaylar, faktlar (14–17 iyul)

### 570 il əvvəl...

**17 iyul 1453-cü ildə** Avropa tarixində ən uzun savaş – Fransa ilə İngiltərə arasındakı "Yüzillik müharibə" (1337-1453, fasilələrlə) başa çatıb. Bordo yaxınlığındakı son döyüşdə Fransa qüvvələri ingilis qoşunlarını məğlub edib. Müharibənin yekunlarına dair formal sülh razılaşması imzalanmadı. Bununla belə, İngiltərə Fransada ələ keçirdiyi əraziləri itirdi.

### 234 il əvvəl...



**14 iyul 1789-cu ildə** Fransada inqilab baş verib. Üsyançı kütlələr Parisdəki Bastiliya qalasını ələ keçirib. XIV əsrdə inşa edilən Bastiliya Fransada mütləqiyyətin simvolu sayılırdı. Bir il sonra qala uçuruldu. Bastiliyanın alınması ilə başlanan inqilabi sarsıntılar bütün Avropada rezonans doğurdu. 1880-ci ildən 14 iyul Fransanın milli bayramı kimi qeyd olunur.

### 219 il əvvəl...

**16 iyul 1804-cü ildə** Birinci Rusiya-İran müharibəsi (1804-1813) başlanıb. Müharibənin ilkin nəticəsi olaraq imzalanan Kürəkçay müqaviləlarinə (14 və 21 may 1805-ci il) əsasən, Azərbaycanın Qarabağ və Şəki xanlıqları Rusiyaya ilhaq edilib.

### 182 il əvvəl...

**15 iyul 1841-ci ildə** Londonda İstanbul boğazları (Aralıq və Qara dənizləri birləşdirən Bosfor və Çanaqqala (Dardanel) boğazları) haqqında konvensiya imzalanıb. Osmanlı imperiyası, Britaniya, Fransa, Rusiya, Prussiya və Avstriya arasında imzalanan sənədə əsasən, boğazlardan xarici gəmilərin keçməsinə icazəni ancaq Osmanlı dövləti verə bilərdi.

### 105 il əvvəl...

**15 iyul 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası 1918-ci ilin martında daşnak-bolşevik dəstələrinin azərbaycanlılara qarşı törətdiyi soyqırımı cinayətlərinin araşdırılması üçün Fövqəladə Təhqiqat Komissiyası yaradıb.

**17 iyul 1918-ci ildə** Yekaterinburq şəhərindəki "İpatyev evi"ndə Rusiya imperiyasının sonuncu çarı II Nikolay ailəsi (xanımı Aleksandra, dörd qızı, oğlu Aleksey) və yaxınları ilə birlikdə güllələnib. Çar ailəsinin güllələnməsi barədə əmri Lenin vermişdi. Vladimir İliç 1887-ci ildə çar III Aleksandrın (II Nikolayın böyük qardaşı) əmri ilə edam olunmuş qardaşı Aleksandrın qisasını belə aldı.

### 103 il əvvəl...

**17 iyul 1920-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin keçmiş daxili işlər naziri (iyun-dekabr 1918) Behbud ağa Cavanşir İstanbulda erməni terrorçusu Misak Torlakyan tərəfindən qətlə yetirilib.

### 78 il əvvəl...

**17 iyul 1945-ci ildə** Berlin yaxınlığındakı Potsdam şəhərində faşist Almaniyası üzərində qələbənin və II Dünya müharibəsinin nəticələrinə dair beynəlxalq konfrans işə başlayıb. Potsdam konfransında üç qalib dövlətin – SSRİ, ABŞ və Britaniyanın liderləri İosif Stalin, Harri Trumen və Vinston Çörçill iştirak edirdi. Konfransda Almaniyanın sektorlara bölüşdürülməsi razılaşdırıldı. Konfransın qərarına əsasən, Yaponiya ilə haqq-hesab çəkilməsi SSRİ-nin üzərinə (ABŞ-nin dəstəyi ilə) qoyuldu.

### 54 il əvvəl...

**14 iyul 1969-cu ildə** Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda təşkilati məsələyə baxılıb. KP MK-nın I katibi Vəli Axundovun istefası qəbul olunub. Plenum yekdil qərarla Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri Heydər Əliyevi Azərbaycan KP MK-nın I katibi seçib. Bu, Azərbaycanın yeni tarixində güclü lider kimi müstəsna yer tutacaq şəxsiyyətin böyük siyasətə və hakimiyyətə gəlişi idi.

### 50 il əvvəl...



**17 iyul 1973-cü ildə** Əfqanıstanda monarxiya devrilib, ölkə respublika elan olunub. Məhəmməd Zahir şah taxt-tacdan əl çəkib və mühacirətə (İtaliyaya) gedib. Sonrakı illərdə Əfqanıstanda fərqi təmayüllü siyasi rejimlər (o cümlədən 10 ildən artıq SSRİ-nin yönəltdiyi rejim) bir-birini əvəz etsə də, ölkədə sabitlik indiyədək bərqərar olmayıb.

**Hazırladı: V.Orxan**

# "İpək Yolları gənclərin gözü ilə"

## Beynəlxalq müsabiqə yekunlaşmaq üzrədir

UNESCO-nun himayəsi ilə gənc fotoqraflar üçün təşkil edilən "İpək Yolları gənclərin gözü ilə" adlı beynəlxalq müsabiqə yekunlaşmaq üzrədir .




14-17 və 18-25 yaş kateqoriyasında keçirilən müsabiqənin builki mövzusu "Memarlıq, abidələr"dir.

Müsabiqəyə maksimum 20 foto göndərmək olar. Müsabiqəyə bu link vasitəsilə qatılmaq olar: https://unescosilkroadphotocontest.org/en/node/3

Müsabiqə iyulun 31-də başa çatacaq. Bu layihə 2018-ci ildə məşhur fotoqraf Reza Deqatinin təşəbbüsü və UNESCO-nun təşkilatçılığı ilə yaradılıb və artıq 5-ci ildir ki, təşkil olunur.

Qaliblərə hədiyyələr təqdim olunacaq və müsabiqə ruhunu ən yaxşı şəkildə əks etdirən fotoşəkillərin səyyar sərgisi müxtəlif ölkələrdə nümayiş etdiriləcək, həmçinin peşəkar fotoalbomda nəşr olunacaq.

# Küveytdəki sərgidə stendimiz maraq doğurub

Küveyt Dövlət Universitetində ərəb dili üzrə təhsil alan tələbələrin məzun olması ilə əlaqədar "Beynəlxalq Gün" təşkil edilib. Tədbirə Küveytdə akkreditə olunmuş diplomatik nümayəndəliklər də qatılıblar.



Azərbaycanın Küveytdəki Səfirliyindən bildiriblər ki, tədbir çərçivəsində sərgi də təşkil olunub. Azərbaycan səfirliyinin dəstəyi ilə qurulan stenddə ölkəmizin mədəniyyəti, mətbəxi, milli geyimləri, xalçaçılıq sənəti, turizm potensialı barədə məlumat verilib, çap materialları paylanılıb. Onların arasında ərəb dilində nəşr olunmuş "Şuşa: Azərbaycan mədəniyyətinin paytaxtı, Qarabağın incisi" adlı kitab, Şuşa şəhəri ilə bağlı "İrs" jurnalının xüsusi buraxılışı da yer alıb.

Sərginin təşkilatçılarına Şuşada keçirilən "Xarıbülbül" festivalı ilə bağlı təbliğat materialları, üzərində Yuxarı Gövhər ağa məscidinin təsviri olan kiçik xalçalar hədiyyə edilib.

Bununla yanaşı, sərgidə ölkəmizin tarixi və müasir mədəniyyət abidələrini, gəzməli və görməli yerlərini, tarixi məkanlarını və milli-mənəvi dəyərlərini əks etdirən broşürlər, habelə milli geyim və mətbəx nümunələrimiz nümayiş olunub və ziyarətçilər Azərbaycan mətbəxinə aid şirniyyatlara qonaq edilib.

Ölkəmizdə istehsal olunan "Bizim tarla" və "Azərçay" brendlərinin məhsulları da sərgi iştirakçılarına hədiyyə edilib.

# Ərəb turizm portalı ölkəmizin görməli yerlərini tanıdır

Ərəb ölkələrinin ortaq "Tourist.Faharas" portalında Azərbaycan paytaxtının ən yaxşı məkanları barədə "Azərbaycanın 10 ən görməli yerləri" sərlövhəli məqalə və fotoşəkillər yerləşdirilib.



Məqalədə paytaxt Bakıda qədim tarixi olan İçərişəhərin əcnəbi turistlərin sevimli məkanı olduğu qeyd edilib. Diqqətə çatdırılır ki, 1909-cu ildə salınan dənizkənarı bulvar da Bakı sakinlərinin və şəhərin qonaqlarının istirahət yeridir.

Ərəb ölkələrindən olan potensial turistlərin diqqətinə çatdırılıb ki, Azərbaycanın rayonlarında da görməli yerlər, qədim tarixi abidələr var. Bölgələrdə turistlərin istirahəti üçün yüksək şərait yaradılıb, təbiətin qoynunda ən müasir standartlara cavab verən komfortlu hotellər fəaliyyət göstərir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya** № AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 1781
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641